Azərbaycan Universitetinin nəşri

# ÇAĞLAYAN

2022/2 (11)

www.au.edu.az



Azərbaycan Universiteti ilə Qazaxıstanın Müstəqil Akkreditasiya və Reytinq Agentliyi (IAAR) arasında əməkdaşlıq perspektivləri müzakirə olunub

səh.10




1991
ww.au.edu.az












# ABİTURİYENT MƏSLƏHƏT MƏRKƏZİ

• MƏSLƏHƏT XİDMƏTİ • TEXNİKİ DƏSTƏK • ÖDƏNİŞSİZ ƏSASLARLA





AZƏRBAYCAN 1991 UNİVERSİTETİ

# ÇAĞLAYAN

**Təsisçi və baş redaktor**

Azərbaycan Universitetinin rektoru
Səadət Əliyeva

**Redaksiya heyəti**

Yusif Qasımov
Nüşabə Quliyeva
Qabil Əliyev
Səfər Məmmədov
Asif Paşayev
Samirə Məmmədova
Tünzalə Verdiyeva
Nəriman Böyükkişi

**Dizayner və fotoqraf**

Elxan Fərzəliyev

**Assistentlər**

Təhminə Hüseynova
Ayşən Hüseynova
Ramazan Musayev

**İcraçı redaktor**

Lalə Dilənova

"Çağlayan" jurnalı
Azərbaycan Universiteti tərəfindən nəşr olunur.
(Ədliyyə Nazirliyinin reyestr nömrəsi 4138; 13.10.2017)

AZ1007, Azərbaycan Respublikası
Bakı şəhəri, Nəsimi rayonu
Ceyhun Hacıbəyli küçəsi, 71
Tel: (+994 12) 431 41 12 /13/16
www.au.edu.az

# İçindəkilər


10 Universitet xəbərləri

18 Yeni kitablar

20 Elmi fəaliyyət

25 Beynəlxalq əlaqələr

26 Azərbaycan xalqının mədəni irs nümunələri

32 Şuşanın görkəmli şəxsiyyətləri
*Mir Möhsün Nəvvab-190*

38 Tələbə həyatı

48 Məzunların izi ilə
*Səyavuş Əlizadə ilə söhbət*

52 Karyera məsləhəti
*Əmək bazarında yeni peşə: Mediator*

54 Məzunlarımız:
*Sənani Mustafayev*
*Samir Hüseynov*

58 Aktual
ChatGBT nədir?

# ŞUŞA İLİ
# 2022






# Redaksiyadan

Hörmətli oxucular,
"Çağlayan" jurnalının 11-ci sayında hər birinizi ürəkdən salamlayırıq. Bu, "Şuşa ili"ndə sizlərlə ikinci görüşümüzdür. Cənab Prezident İlham Əliyevin 2022-ci ili "Şuşa İli" elan etməsi haqqında sərəncamı hər birimizin ürəyincə oldu. Tarixi, siyasi və mənəvi baxımdan mühüm əhəmiyyətə malik olan və bir neçə strateji hədəfə çatmağa hesablanan bu sərəncam eyni zamanda ölkəmizdə milli-mədəni və tarixi irsimizin qorunması və təbliğ olunmasına dövlət tərəfindən göstərilən xüsusi diqqət və qayğının da göstəricisidir.
2022-ci ildə Şuşa şəhərinin 270 illik yubileyini təntənəli şəkildə qeyd etdik, dünya Azərbaycanın mədəniyyət paytaxtında baş verən möhtəşəm hadisələrin şahidi oldu. Tarixə "Zəfər Qurultayı" kimi yazılan Dünya Azərbaycanlılarının V Qurultayı Azərbaycan diasporu qarşısında yeni vəzifələr müəyyənləşdirdi, dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıya böyük qürur hissi yaşatdı. "Xarıbülbül" Musiqi Festivalı və "Vaqif Poeziya Günləri"nin bərpa olunması Qarabağa qayıdışın ədəbi manifesti kimi Şuşanın zəngin mədəniyyətini və ədalətli qələbənin bölgədə yaratdığı yeni reallığı dünyaya bir daha nümayiş etdirdi.
İl ərzində bütün qurumlar-dövlət orqanları, özəl müəssisələr, qeyri-hökumət təşkilatları, təhsil müəssisələri tərəfindən Şuşanın tarixi, Qarabağın və bütövlükdə Azərbaycanın mədəni, iqtisadi və sosial həyatında oynadığı rol dünya ictimaiyyətinə yeni çalarlarla çatdırıldı, işğal dövründə məruz qaldığı vandallıq, dağıntı və mənəvi zərbə haqqında ətraflı məlumat verildi, kitablar nəşr olundu, filmlər çəkildi, sərgilər açıldı.
Qarabağın əsl sahibinin kim olduğunu dünyaya bir daha çatdırdıq, tarixin saxtalaşdırılması cəhdlərini real faktlarla ifşa etdik. Sübut etdik ki, Şuşa azərbaycanlılar üçün təkcə bir şəhər deyil, həm də əziz və müqəddəs bir yer, dəyərli tarixi abidədir. Vətən müharibəsində əldə etdiyimiz tarixi qələbəni iqtisadi, siyasi və diplomatiya müstəvisində daha da möhkəmləndirməyə xidmət edən Şuşa ilini arxada qoyuruq, onun tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi mədəni həyatına qovuşması istiqamətində görülən işlər isə davam edir. Qarabağdakı quruculuq işləri və "Böyük qayıdış" sürətlənir, həyat yenidən öz axarına qayıdır.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında" 5 yanvar 2022-ci il tarixli Sərəncamına uyğun olaraq Azərbaycan Universitetində də "Şuşa ili Tədbirlər Planı" icra olunub, elmi seminar və mühazirələr, tədris-tədqiqat layihələri, dəyirmi masa müzakirələri, ustad dərsləri, ədəbi-bədii tədbirlər, tələbələr arasında müxtəlif istiqamətli bilik və idman yarışları keçirilib, sərgilər təşkil olunub. Bu tədbirlərin hər biri jurnalımızın "Şuşa ili"nə həsr olunan ötən nömrəsində və artıq oxumağa başladığınız bu sayımızda ətraflı şəkildə işıqlandırılıb. Universitetin həyatında baş verən bütün yeniliklər bu buraxılışda da öz əksini tapıb.
Yeni sayımızı da böyük zövqlə oxuyacağınızı ümid edirik...

## "Şuşa: mədəniyyətimizin beşiyi" adlı ədəbi-bədii tədbir keçirilib



"Şuşa ili"nə həsr olunan ədəbi-bədii tədbir Azərbaycan dili və ədəbiyyat, Tərcümə və filologiya kafedraları tərəfindən birgə təşkil olunub. Tədbirdə Filologiya (Azərbaycan dili və ədəbiyyatı), Filologiya (ingilis dili və ədəbiyyatı), Təhsildə sosial-psixoloji xidmət, Dövlət və ictimai münasibətlər ixtisasları üzrə təhsil alan tələbələrin iştirakı ilə ədəbi kompozisiya təqdim edilib, Qarabağın məşhur şairlərinin şeirləri səsləndirilib. Kompozisiyada Qarabağ xanlığı, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa, eləcə də Xan qızı Xurşidbanu Natəvanın həyatından fraqmentlərin yer aldığı səhnəciklər, milli rəqs və mahnılar təqdim edilib.



Kompozisiyanın təqdimatının ardından Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri, dosent Ülviyyə Rəhimova və Tərcümə və filologiya kafedrasının müdiri dosent Samirə Məmmədova çıxış edərək Şuşa ədəbi mühitinin Azərbaycan mədəniyyətinin və ədəbiyyatının tarixində müstəsna rolu olduğunu vurğulayıblar. Tələbələr tədbirə Azərbaycan dili və ədəbiyyat kafedrasının müəllimi Solmaz Süleymanovanın rəhbərliyində hazırlaşıblar.

## "Şuşa Azərbaycanın tacıdır" esse müsabiqəsinin qalibləri mükafatlandırılıb



Tələbələr arasında keçirilən və "Şuşa İli"nə həsr olunan "Şuşa Azərbaycanın tacıdır" (Azərbaycan və ingilis dillərində) esse müsabiqəsinin qalibləri mükafatlandırılıb. İngilis dilində esse müsabiqəsində I yerə Tərcümə (ingilis dili) ixtisası üzrə III kurs tələbəsi Emilya Mahmudova, II yerə Filologiya (ingilis dili və ədəbiyyatı) ixtisası üzrə IV kurs tələbəsi Nazənin Xalıqverdiyeva, III yerə Tərcümə (ingilis dili) ixtisası üzrə IV kurs tələbəsi Nailə Manafova layiq görülüb. Azərbaycan dilində esse müsabiqəsinin qalibi isə Dövlət və ictimai münasibətlər ixtisası üzrə I kurs tələbəsi Nuranə Məmmədova olub.



Esse müsabiqəsinin keçirilməsində məqsəd milli mədəniyyətimizin beşiyi olan Şuşa şəhərinin mədəniyyətinin, incəsənətinin, tarixinin, görkəmli şəxsiyyətlərinin tələbələr tərəfindən araşdırılması və onlarda yaradıcı yazı bacarıqlarının formalaşdırılmasıdır.
Müsabiqəyə təqdim olunan esselər münsiflər heyəti tərəfindən bədii və yaradıcılıq baxımından qiymətləndirilib.
Qaliblərə diplom və hədiyyələr təqdim olunub.

## "Qarabağın abidələri" ən yaxşı təqdimat müsabiqəsinin qalibləri mükafatlandırılıb



İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin Tələbə Elmi Cəmiyyəti tərəfindən təşkil olunan "Qarabağın ermənilər tərəfindən dağıdılmış tarix-memarlıq abidələri" mövzusunda ən yaxşı təqdimat müsabiqəsinin qalibləri mükafatlandırılıb.
"Şuşa İli"nə həsr olunan müsabiqənin məqsədi münaqişə və işğal dövründə Qarabağın ermənilər tərəfindən dağıdılmış abidələrinin tələbələr tərəfindən araşdırılması, o cümlədən onlarda təqdimat bacarıqlarının formalaşdırılmasıdır.
Müsabiqənin nəticələrinə əsasən I yerə Arzu Hacızadə (Biznes və iqtisadiyyat fakültəsi, Turizm işinin təşkili, I kurs), II yerə İlkanə Abbaszadə (İnformasiya-kommunikasiya texnologiyaları fakültəsi, Kompüter mühəndisliyi, I kurs), III yerə Nahid Məmmədov (Humanitar fənlər fakültəsi, Tarix ixtisası, III kurs) layiq görülüb.
Qaliblərə və iştirakçılara hədiyyələri və sertifikatları elmi işlər üzrə prorektor Yusif Qasımov, İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin dekanı Asif Paşayev, Riyaziyyat və informatika kafedrasının müdiri Rəşad Məstəliyev təqdim edib.

## "Salam, Şuşa! Biz qayıtmışıq!" rəsm sərgisinin iştirakçıları təltif olunub

Azərbaycan Universitetində "Şuşa İli"nə həsr olunan daha bir müsabiqə uğurla yekunlaşıb.
İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin Tələbə Elmi Cəmiyyəti tərəfindən təşkil olunan "Salam, Şuşa! Biz qayıtmışıq" adlı rəsm sərgisinin iştirakçıları sertifikatla təltif olunublar.
Sərginin təşkil olunmasında məqsəd Qarabağın və Şuşanın təbliğinə rəsmlər vasitəsilə töhfə verməkdir.



Rəsm sərgisinin iştirakçılarına sertifikatlarını elmi işlər üzrə prorektor Yusif Qasımov və Riyaziyyat və informatika kafedrasının müdiri Rəşad Məstəliyev təqdim edib. Prorektor Yusif Qasımov Şuşanın gözəlliklərini rənglərin dili ilə çatdırdıqları üçün tələbələrə təşəkkür edib.

## "Mənim Azərbaycanım" layihəsi "Şuşa İli"nə həsr edilib

Azərbaycan dili və ədəbiyyat kafedrasının təşkilatçılığı ilə keçirilən "Mənim Azərbaycanım: qalib ölkə, müzəffər xalq" adlı ənənəvi tələbə tədris-tədqiqat layihəsi "Şuşa İli"nə həsr edilib.
Layihə çərçivəsində Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə təhsil alan II kurs tələbələri Şuşanın təbiətinə, tarixinə, mədəniyyətinə, incəsənətinə, etnoqrafiyasına, görkəmli şəxsiyyətlərinə aid apardıqları araşdırmaları təqdim ediblər.




Tələbə tədqiqatlarının bir hissəsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız şanlı qələbəmizdə böyük payı olan şəhid və qazilərə həsr edilib.
Tələbələr materialları müxtəlif informasiya mənbələri, valideynləri və yaşlılarla müsahibələr, şəxsi müşahidələri əsasında toplayıblar.

## Rektor Səadət Əliyeva IAAR sədri ilə görüşüb



Rektor Səadət Əliyeva Qazaxıstanın Müstəqil Akkreditasiya və Reytinq Agentliyinin (Independent Agency for Accreditation And Rating / IAAR) sədri Alina Jumaqulova və təşkilatın layihə rəhbəri Quliyaş Niyazovanı qəbul edib. Görüşdə proqram və institusional akkreditasiya standartları və meyarları müzakirə olunub. Tərəflər ali təhsildə akkreditasiyanın aparıcı beynəlxalq təcrübəyə əsaslanmasının əhəmiyyətini vurğulayıb və əməkdaşlıq etməkdən məmnunluq duyacaqlarını ifadə ediblər.

Qeyd edək ki, Azərbaycan Universiteti özünün institusional akkreditasiyasını həyata keçirməyi planlaşdırır. Həmçinin ixtisasların beynəlxalq akkreditasiyasına nail olunması istiqamətindəki fəaliyyətlərə də başlanılıb.

2011-ci ildə fəaliyyətə başlayan IAAR ali təhsil müəssisələrinin institusional akkreditasiya, tədris proqramlarının akkreditasiyası başda olmaqla müxtəlif istiqamətlərdə akkreditasiyasını həyata keçirir. Agentlik təhsildə keyfiyyətin təminatı üzrə aparıcı beynəlxalq akkreditasiya təşkilatlarından biridir.

## Azərbaycan Universiteti ilə Sent-Luis Vaşinqton Universiteti arasında görüş olub

Zoom platforması üzərindən keçirilən görüşdə Elmi işlər üzrə prorektor Yusif Qasımov, Elm şöbəsinin müdiri Lətifə Ağamalıyeva, Sosial işin təşkili kafedrasının müdiri Tünzalə Verdiyeva və kafedranın müəllimi Aygün Muradlı iştirak edib. Sent-Luis Vaşinqton Universitetini isə bu ali məktəbin müəllimi və Azərbaycan Sosial İş İctimai Birliyinin prezidenti Aytəkin Hüseynli, birliyin idarə heyətinin üzvü Amalya Sezgin və birliyin icraçı direktoru Sənan Ağayev təmsil edib.



Görüşdə universitetlər arasında Sosial iş ixtisası üzrə ikili diplom proqramının yaradılması, beynəlxalq konfransın keçirilməsi, birgə elmi-tədqiqat işlərinin aparılması və Sosial iş elm sahəsi üzrə elmi jurnalın çap edilməsi barədə müzakirələr aparılıb.

## ODTU rektoru Mustafa Varşan Kök Azərbaycan Universitetində olub

Orta Doğu Texniki Universitetinin rektoru, professor Mustafa Varşan Kök və rektorun köməkçisi, professor Mehmet Zeyrek Azərbaycan Universitetinin qonağı olublar. Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru Yusif Qasımov, İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin dekanı Asif Paşayev və Tədris şöbəsinin müdiri Tariyel Qəninin iştirak etdiyi görüşdə tərəflər arasında mümkün əməkdaşlıq istiqamətləri üzrə fikir mübadiləsi aparılıb.



Prorektor Yusif Qasımov ODTU ilə əməkdaşlığın Azərbaycan Universiteti üçün yeni imkanlar yaradacağını vurğulayıb. Qonaq rektor Azərbaycan Universitetinin son illərdə təhsil və tədqiqat sahəsində ardıcıl və məqsədyönlü fəaliyyətini yüksək qiymətləndirdiyini bildirib və tərəflər arasında əməkdaşlığa başlanmasının mümkünlüyünü ifadə edib.

## İKT fakültəsinin dekanı Asif Paşayevin iştirak etdiyi layihə yekunlaşıb



Azərbaycan Universitetinin İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin dekanı Asif Paşayevin iştirak etdiyi "İnsan-kompüter interfeysləri sahəsində təhsilverənlərin peşəkarlığının yüksəldilməsi və beynəlxalq təcrübənin öyrənilməsi" adlı qrant layihəsi yekunlaşıb. Layihənin yekunu olaraq "İnsan-kompüter qarşılıqlı əlaqəsi" mövzusunda Beynəlxalq Şərq Konfransı keçirilib, həmçinin "Nəzəriyyədən təcrübəyə: insan – kompüter qarşılıqlı əlaqəsi və istifadəyə yararlılıq mühəndisliyi" kitabı çap olunub.
Naxçıvan Universiteti, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Türkiyənin Orta Doğu Texniki Universitetinin birgə təşkilatçılığı ilə baş tutan konfransa Azərbaycan, Türkiyə, Qırğızıstan, Malayziya, Tailand və İtaliya kimi ölkələrdən 160 müəllifin 91 məqaləsi daxil olub. Konfransın elm komitəsi tərəfindən 75 məqalə qəbul edilib.
Qeyd edək ki, layihə Elm və Təhsil Nazirliyinin 2021-ci il oktyabr ayında elan etdiyi "Ali və orta ixtisas təhsilinin 2021-2022-ci illər üzrə inkişafı" qrant müsabiqəsi çərçivəsində dəstəklənən 9 layihədən biridir. 2022-ci ilin oktyabr ayında yekunlaşan layihənin qalibi və koordinatoru Naxçıvan Universitetidir. Layihənin eksperti Türkiyənin Orta Doğu Texniki Universitetinin müəllimi, eyni zamanda "Nəzəriyyədən təcrübəyə: insan – kompüter qarşılıqlı əlaqəsi və istifadəyə yararlılıq mühəndisliyi" kitabının müəllifi, professor Kürşat Çağıltaydır.
Azərbaycan Universitetinin İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin dekanı Asif Paşayev layihənin nəzəri və praktiki təlimlərində, həmçinin layihə çərçivəsində 2020-ci ilin mart ayında Türkiyənin Orta Doğu Texniki Universitetinə təşkil olunan səfər və təlimlərdə iştirak edib.

## "İcbari tibbi sığorta" mövzusunda maarifləndirici tədbir keçirilib



Tədbirdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin məsləhətçisi Emil Lətifov təqdimatla çıxış edib. Təqdimat icbari tibbi sığorta haqqında ümumi məlumat, icbari tibbi sığorta haqları, icbari tibbi sığortanın xidmətlər zərfinə daxil olan tibbi xidmətlər, TƏBİB-in tabeliyindəki dövlət tibbi müəssisələri barədə ümumi məlumat, icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə qaydası, agentliyin müqavilə bağladığı özəl tibb müəssisələrinin siyahısı və özəl tibb müəssisələrində icbari tibbi sığortadan istifadə qaydası kimi mövzuları əhatə edib.

## Azərbaycan Universiteti "Bona Dea Hospital" ilə əməkdaşlığa başlayıb



Azərbaycan Universiteti Bakının Nizami rayonunda yerləşən, tibbi avadanlığına və texniki təchizatına görə dünyada bu sahədə ən müasir standartlara cavab verən "Bona Dea Hospital" ilə əməkdaşlığa başlayıb. Tərəflər arasında imzalanan müqaviləyə əsasən Azərbaycan Universitetinin əməkdaşlarına qiymət cədvəlində göstərilən xidmətlər üzrə 25 faiz, tələbələrinə isə 15 faiz endirim tətbiq olunur.

## "27 sentyabr – Anım Günü" qeyd olunub



Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq təsis edilən "Anım Günü" münasibətilə təşkil olunan tədbirdə qeyd olunub ki, 27 sentyabr tarixi böyük Qarabağ Zəfərinə gedən yolun başlanğıcıdır. Xalqımızın hərbi qələbəsi çox yaxın gələcəkdə iqtisadi və siyasi qələbəyə də çevriləcək. "Böyük qayıdış" proqramının icrası ilə bundan sonra ölkəmiz üçün quruculuq və  azad edilmiş ərazilərimizin bərpası dövrü başlayıb.



Bildirilib ki, Azərbaycan 1991-ci ildən başlayaraq Ermənistanın açıq hərbi təcavüzü ilə üzləşib. Son 200 illik tariximizdə bənzəri olmayan Qarabağ Zəfəri təkcə ölkəmiz və region üçün deyil, türk və müsəlman dünyası üçün də böyük əhəmiyyətə malikdir.

Tədbirdə böyük Zəfərin qazanılmasında xalqı vahid ideya ətrafında birləşdirməyə nail olan Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsinin, Azərbaycan əsgərinin igidliyinin və Azərbaycan xalqının həmrəyliyinin əvəzsiz rol oynadığı vurğulanıb, şəhidlərin xatirəsinə ehtiram və minnətdarlıq ifadə olunub, qazilərə şəfa dilənib.

## Ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb



Azərbaycan Universitetində ümummilli lider Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə bağlı anım mərasimi keçirilib. Tədbirdən əvvəl universitet kollektivi Fəxri xiyabanda ümummilli liderin məzarını ziyarət edib, xatirəsinə ehtiramlarını bildiriblər. Universitetin tədris binasında təşkil olunan anım tədbirində Nəsimi Rayon İcra Hakimiyyətinin Başçısı Asif Əsgərov çıxış edərək ümummilli liderin Azərbaycana rəhbərliyinin hər iki dövründə çoxşaxəli fəaliyyət və xidmətlərinə nəzər salıb. Ardınca AMEA Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsinin müdiri, professor Ədalət Qasımov "Ulu öndər Heydər Əliyev – böyük insan, böyük şəxsiyyət", Azərbaycan Universitetinin İctimai elmlər kafedrasının professoru, sənətşünaslıq üzrə elmlər doktoru Vəfa Əliyev "Ulu öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinin inkişafına töhfələri" mövzusunda məruzə ilə çıxış ediblər.



Çıxışlarda ümummilli lider Heydər Əliyevin ədəbiyyat, mədəniyyət, incəsənət və təhsilə xüsusi qayğısı vurğulanıb. Qeyd olunub ki, dahi şəxsiyyət Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və yeni müddəalarla zənginləşdirilir. Möhtəşəm Qarabağ zəfəri də məhz Heydər Əliyev tərəfindən təməli qoyulan proses və islahatların məntiqi nəticəsidir.

## "Müstəqilliyin Bərpası Günü"nə həsr olunan tədbir keçirilib



"18 Oktyabr – Müstəqilliyin Bərpası Günü"nə həsr olunan tədbirdə AMEA Tarix İnstitutunun baş direktoru, professor Kərim Şükürov "Azərbaycan Respublikasının müstəqillik dövrü tarixi: öyrənilməsi, uğurları, problemlər, vəzifələr" mövzusunda çıxış edib. Kərim Şükürov çıxışında qeyd edib ki, Azərbaycanın müstəqilliyinin bərpası və ilk illəri çox ağır və mürəkkəb bir zamanda, Ermənistanın hərbi təcavüzünü dəf etmək şəraitində həyata keçirilib. Yalnız 1993-cü ilin iyun ayında ümummilli lider Heydər Əliyev Azərbaycan rəhbərliyinə gəldikdən sonra dövlət müstəqilliyini möhkəmləndirmək üçün qətiyyətli və məqsədyönlü addımlar atılıb. Son 18 il ərzində isə ümummilli liderin layiqli davamçısı İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan Respublikası bütün sahələrdə böyük uğurlar qazanıb, Qarabağ torpaqları düşmən tapdağından azad edilib.

## Akademik Yaqub Mahmudov tarixçi tələbələrə ustad dərsi keçib



AMEA-nın həqiqi üzvü, akademik Yaqub Mahmudov Azərbaycan Universitetinin Tarix ixtisası üzrə təhsil alan tələbələrinə "Real tarix və "Böyük Ermənistan" uydurması" mövzusunda ustad dərsi keçib. Akademik çıxışında bildirib ki, cənab Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə Azərbaycan tarix elmi saxtalaşdırma və təhriflərdən təmizlənir, xarici ölkələrdə saxlanılan çoxsaylı mənbələr, o cümlədən arxiv sənədləri ölkəyə gətirilir. AMEA Tarix İnstitutu tərəfindən bu istiqamətdə onlarla qiymətli əsər nəşr olunub. "Real tarix və "Böyük Ermənistan" uydurması" kitabı da ölkə başçısının çağırışlarına cavab olaraq ərsəyə gətirilib.
Yaqub Mahmudov çıxışında Azərbaycan xalqının təşəkkülü prosesi, XIX əsrin əvvəllərində Azərbaycan torpaqlarının Rusiya və Qacarlar dövləti arasında bölüşdürülməsi, Gülüstan və Türkmənçay müqavilələri, ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülüb yerləşdirilməsi kimi mövzulara toxunub. Həmçinin bildirib ki, kitabda ermənilərin Kiçik Asiyaya Balkan yarımadasından köçüb gəldikləri, mənşəcə qədim frigiyalılarla qohum etnos olduqları və Asiya qitəsinin aborigen əhalisi olmadıqları ilk mənbələr əsasında sübuta yetirilib.

## Əhməd bəy Ağaoğlunun həyat və fəaliyyətinə həsr olunan dəyirmi masa keçirilib



Görkəmli mütəfəkkir, ictimai – siyasi xadim, hüquqşünas, jurnalist, yazıçı Əhməd bəy Ağaoğlunun həyat və fəaliyyətinə həsr olunan dəyirmi masanın qonağı Şimali Kipr Türk Cümhuriyyətinin Lefke Avropa Universitetinin Türk dili və ədəbiyyatı kafedrasının müdiri, dosent Nazim Muradov olub.
Qonaq çıxışında Əhməd bəy Ağaoğlunun həyat və fəaliyyətinin müxtəlif dövrləri, təhsil həyatı, ictimai-siyasi baxışları, özünəməxsus siması, erməni fitnəkarlığının qarşısının alınmasındakı xidmətləri, ermənilərə onların öz üsulları ilə cavab vermək məqsədi ilə yaratdığı "Difai" təşkilatı, jurnalistlik fəaliyyəti, Atatürk və Məmməd Əmin Rəsulzadə ilə münasibətləri, Türkiyədəki həyat və fəaliyyətinə dair maraqlı faktlar təqdim edib.

## "8 Noyabr – Zəfər Bayramı" mövzusunda tədbir keçirilib



İctimai elmlər kafedrasının təşkilatçılığı ilə keçirilən "8 Noyabr – Zəfər Bayramı" mövzusuna həsr olunan tədbirdə hərbi ekspert Ədalət Verdiyev, kafedranın professoru Mais Əmrahov, Vətən müharibəsi iştirakçısı, "Qarabağ Qaziləri" İctimai Birliyinin Yasamal rayonu üzrə nümayəndəsi, qazi Oruc Baxşəliyevin çıxışları dinlənilib.
Tədbirdə İctimai elmlər kafedrasının müdiri, professor Qabil Əliyev Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin tarixi-siyasi əhəmiyyətini vurğulayıb, şanlı Qələbənin hər bir azərbaycanlının qürur duyacağı böyük hadisə olduğunu qeyd edib.
Hərbi ekspert Ədalət Verdiyevin çıxışı "44 günlük Vətən müharibəsində möhtəşəm qələbə" mövzusuna həsr olunub. Professor Mais Əmrahov "İkinci Qarabağ – Vətən müharibəsinin dərsləri" mövzusunda çıxış edib. Qazi Oruc Baxşəliyev isə 44 günlük Vətən müharibəsinə dair cəbhə təəssüratlarını tədbir iştirakçıları ilə bölüşüb.

## "Vətənpərvərlik tərbiyəsinin psixoloji tərəfləri" mövzusunda tədbir keçirilib



Sosial işin təşkili kafderasının müəllimi Lalə Babayevanın təşkilatçılığı ilə keçirilən "Zəfər Günü və vətənpərvərlik tərbiyəsinin psixoloji tərəfləri" adlı tədbirdə tələbələrin Dağlıq Qarabağ münaqişəsinin mərhələləri, Ermənistanın Azərbaycana olan ərazi iddiaları, Qarabağın süni şəkildə ikiyə bölünməsi və dağlıq hissəsində muxtar vilayətin yaradılması, Sovet dövründə və 1980-ci illərin sonunda ermənilərin torpaq iddiaları, münaqişənin müharibə fazasına keçməsi, Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi, müzakirə dövrünün döyüşləri, 44 günlük Vətən müharibəsi, Zəfər Gününün təsis olunması kimi müasir Azərbaycan tarixinin önəmli hadisələri haqqında hazırladıqları videoçarxlar nümayiş olunub.

## "Zəfər tariximiz-hünər tariximiz" mövzusunda tədbir keçirilib

Qarabağ zəfərinin ikinci ildönümünə həsr olunan "Zəfər tariximiz-hünər tariximiz" tədbiri "Azadlıq Hərəkatçıları" İctimai Birliyi ilə birgə təşkil olunub. Tədbiri giriş sözü ilə birliyin sədri, yazıçı-publisist Təhmasib Novruzov açaraq tələbələrə Qarabağ zəfərinin yaratdığı yeni reallıqlar haqqında məlumat verib. İctimai elmlər kafedrasının müdiri, professor Qabil Əliyevin çıxışı ölkəmizin 44 günlük Vətən müharibəsi dövründə əldə etdiyi hərbi, diplomatik



və informasiya məkanındakı uğurlarına həsr olunub. Kafedra müdiri bildirib ki, Azərbaycan təkcə döyüş meydanında yox, informasiya müharibəsində də düşmənə qalib gəlib.
Tədbirdə şəhid Ağacan Mütəllimzadənin anası Nailə Mütəllimzadə, "Qarabağ Əlillərinə Qayğı" İctimai Birliyinin sədri və Qarabağ qazisi Firidun Məmmədov, "Vətən Müharibəsi Veteranları" İctimai Birliyi Nəsimi rayon şöbəsinin sədr müavini Namiq Həşimov çıxış edərək, tarixi qələbənin xalqımızın birliyi, əsgərimizin igidliyi ilə birlikdə şəhidlərimizin qanı, qazilərimizin sağlamlığı bahasına qazanıldığını vurğulayıblar. Çıxışlarda Azərbaycan xalqının şəhidlərinin xatirəsini hər zaman uca tutduğu və gələcək nəsillərin onları minnətdarlıq hissi ilə yad edəcəyi vurğulanıb.

## Vətən müharibəsinin iştirakçısı olan məzun və tələbələrlə görüş keçirilib



"Qalib ölkə, müzəffər xalq" adlı tədbir Tərcümə və filologiya kafedrası ilə Azərbaycan dili və ədəbiyyat kafedrası tərəfindən birgə təşkil olunub. "Şuşa" auditoriyasında baş tutan görüş, tarixə 44 günlük müharibə kimi düşən Vətən müharibəsində böyük qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalan şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Tədbirdə Azərbaycanın hərbi müstəvidə əldə etdiyi qələbənin əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, Azərbaycan gənci Vətən müharibəsində əzmi, mətinliyi və mübarizliyi ilə bütün dünyaya öz Vətən sevgisini nümayiş etdirib.



Daha sonra tədbirdə iştirak edən qazi məzunlar - Nurizadə Nurlan Nurəli oğlu (Humanitar fənlər fakültəsi, Tərcümə ixtisası, 2020), İbrahimov Cavad Fuad oğlu (Humanitar fənlər fakültəsi, Tərcümə ixtisası, 2020), Xəlilsoy Mətin Mirzə oğlu (Humanitar fənlər fakültəsi, Tərcümə ixtisası, 2020) və qazi tələbələr Mədinov Elvin Mikayıloviç (İnformasiya-kommunikasiya texnologiyaları fakültəsi, Kompüter mühəndisliyi ixtisası, II kurs), Nəzərov Nəcməddin Məmməd oğlu (Biznes və iqtisadiyyat fakültəsi, Mühasibat ixtisası, III kurs), Əziz Mehman Mahir oğlu (Humanitar fənlər fakültəsi, Tərcümə ixtisası, II kurs) 44 gün ərzində keçdikləri zəfərə gedən yoldan söhbət açıblar.

## "Zəngəzur: sabaha hesablanmış işğal" filminin təqdimatı keçirilib



"Müharibə Veteranı Qadınlarına Sosial Yardım" İctimai Birliyinin "Zəngəzur: sabaha hesablanmış işğal" layihəsi çərçivəsində hazırlanan eyniadlı sənədli filmin nümayişindən əvvəl birliyin sədri Rada Abbas çıxış edərək Zəngəzurun 1920-ci ildə Ermənistana verilməsi haqqında danışıb. Rada Abbas qeyd edib ki, film ingilis dilinə də tərcümə ediləcək.
Tədbirdə Sosial işin təşkili kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru Tünzalə Verdiyeva da çıxış edərək Vətən müharibəsi ilə işğaldan azad edilən torpaqlarımızın strateji əhəmiyyəti haqqında danışıb.
Çıxışların ardından sənədli filmin nümayişi olub. Qeyd edək ki, layihə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin 2022-ci ildə elan etdiyi qrant müsabiqəsinin qalibidir.

## Azərbaycan Universitetinin layihəsi Avropa Komissiyası müsabiqəsinin qalibidir

Azərbaycan Universitetinin "Erasmus+Jean Monnet Module" çərçivəsində təqdim etdiyi layihə Avropa Komissiyası tərəfindən qalib seçilib. "The European Union: Its Institutions Values and Potential Opportunities" (Avropa İttifaqı: onun institutlarının dəyərləri və potensial imkanları) adlı layihənin müddəti 36 aydır. Layihənin əsas məqsədi akademik heyətin və tələbələrin Avropa İttifaqı ilə bağlı məlumatlılığının artırılması üçün kurs və təlimlərin hazırlanıb tədris edilməsidir.
Qeyd edək ki, layihə 2022-ci ilin əvvəllərində hazırlanaraq təqdim olunub. Azərbaycan Universiteti ilə Avropa Komissiyası arasında layihənin icrasına dair qrant sazişi imzalanıb.

## "Beynəlxalq Qızlar Günü"nə həsr olunmuş tədbir keçirilib



"11 oktyabr – Beynəlxalq Qızlar Günü"nə həsr olunmuş tədbiri Sosial işin təşkili kafedrasının müdiri Tünzalə Verdiyeva açaraq qeyd edib ki, Birləşmiş Millətlər Təşkilatı tərəfindən 2011-ci ildə təsis olunan günün məqsədi diqqəti qızların üzləşdiyi problemlərin həllinə, hüquqlarının müdafiəsinə yönəltməkdir.
Açılış nitqinin ardından Azərbaycan Tibb Universitetinin Əmək gigiyenası və uşaq-yeniyetmələr gigiyenası kafedrasının müdiri, tibb elmləri namizədi, dosent Şəhla Balayeva gənc qızlar üçün reproduktiv sağlamlığın aktual məsələləri, Sosial işin təşkili kafedrasının müəllimi Nigar Şahhüseynbəyova isə "Qızların təkcə yeniyetməlik illərində deyil, irəlidəki yaşlarda da təhlükəsizlik, təhsil və sağlam həyat hüquqları" mövzusunda çıxış edib.

## "Narkotik asılılığı və QİÇS" mövzusunda tədbir keçirilib



Sosial işin təşkili kafedrasının təşəbbüsü ilə keçirilən tədbirin qonağı "Zərərli Vərdişlərə Qarşı" İctimai Birliyinin sədri Zaur Orucov olub. Tədbirdən əvvəl universitetin tədris binasında zərərli vərdişlərin insana mənfi təsirlərini özündə əks etdirən karikatura sərgisinə baxış olub.
Zaur Orucov tədbirdə Ümumdünya Səhiyyə təşkilatının zərərli vərdişlərlə bağlı statistik rəqəmlərini diqqətə çatdırıb, tütün məhsulları, alkoqollu içəcəklər, narkotik maddələr kimi zərərli vərdişlərin və aludəçiliyin ağır fəsadları, özəlliklə narkotik aludəçiliyinin insan orqanizminə və psixologiyasına mənfi təsirləri haqqında danışıb. Qonaq qeyd edib ki, narkotik maddələrin qəbulu insanı mənəvi və psixoloji olaraq məhv edir. Bu baxımdan narkomaniya ölkəmizi də narahat edən məsələlərdən biridir və onunla mübarizədə profilaktik işlər böyük əhəmiyyət kəsb edir. Tədbirdə qeyd olunub ki, narkotik maddələrdən asılılıq böyük bir problemə - Qazanılmış İmmun Çatışmazlığı Sindromu (QİÇS) virusuna yoluxmaya gətirib çıxarır. Sosial iş tələbələri mövzuya həssaslıqla yanaşmalı, problemin mahiyyəti, səbəbləri, ictimai təhlükəliliyi və onunla mübarizə yolları haqqında məlumatlı olmalıdırlar.

## Müəllim və tələbələrimiz "Unudulmazlar" saytının təqdimat mərasimində iştirak edib



Sosial işin təşkili kafedrasının müəllimləri professor, hüquq elmləri doktoru Mayis Əliyev və Ülvi Əliyev Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş və Gənclərlə iş ixtisaslarında magistratura təhsili alan tələbələrlə birlikdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sifarişi ilə hazırlanan "Unudulmazlar" saytı və mobil tətbiqinin təqdimat mərasimində iştirak ediblər. Saytın məqsədi ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımız və Vətən müharibəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş şəxslərin cəmiyyətə daha yaxından tanıdılması və diqqətdə saxlanılmasıdır.

## Aygün Muradlı Türkiyədə təlim proqramında iştirak edib




Sosial işin təşkili kafedrasının müəllimi Aygün Muradlı və Sosial iş ixtisası üzrə təhsil alan IV kurs tələbəsi Vüsalə Muxtarova Türkiyənin İstanbul şəhərində Avropa Birliyi, Türkiyə Milli Agentliyi (Turkish National Agency) və "Yaşıl Aypara" Cəmiyyətinin "Gənclər sağlam həyat üçün təşəbbüs göstərir" (Youth take Initiative for healthy living) adlı təlim proqramında iştirak ediblər. "Erasmus+" proqramı çərçivəsində baş tutan təlim proqramı tütün, alkoqol, narkotik, texnologiya və qumar asılılığı, o cümlədən sağlam həyat tərzi sahəsində gənclərin məlumatlılığının artırılması, gənclərlə işin inkişafına töhfə verilməsi, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və mədəniyyətlərarası təcrübə mübadiləsinin artırılması kimi məqsədlərlə təşkil olunub. Proqram çərçivəsində müxtəlif təlim və ekskursiyalarda iştirak edən nümayəndələrimiz "Mədəniyyət gecəsi" adlı tədbirə də qoşularaq Azərbaycan tarixi və mədəniyyətini əks etdirən təqdimatla çıxış ediblər. Aygün Muradlı təqdimatda Azərbaycan, Qarabağ, Xarı bülbül və milli şirniyyatlar haqqında məlumat verib.

## "Bioinformatika məktəbi" layihəsinin Azərbaycan Universitetinə ekskursiyası təşkil olunub

Elm və Təhsil Nazirliyi tərəfindən maliyyələşdirilən Təhsildə inkişaf və innovasiyalar üzrə VI qrant müsabiqəsinin qalibi "Bioinformatika məktəbi" layihəsinin Azərbaycan Universitetinə ekskursiyası təşkil olunub. İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin dekanı və Abituriyent Məsləhət Mərkəzinin rəhbəri Asif Paşayev layihənin iştirakçıları olan şagird və müəllimləri qəbul edib, onları universitetin tədris binası, maddi-texniki bazası, laboratoriyaları ilə tanış edib. Asif Paşayev müəllim və şagirdlərə universitetdə tədris olunan ixtisaslar və tələbələr üçün yaradılan imkanlar, o cümlədən Abituriyent Məsləhət Mərkəzinin fəaliyyəti haqqında ətraflı məlumat verib. Dekan qeyd edib ki, tədris prosesində müasir təlim texnologiyalarından istifadə diqqətdə saxlanılır. İş dünyasının tələb və öncəlikləri nəzərə alınaraq universitetin qəbul planına hər il yeni ixtisaslar əlavə olunur.



Beynəlxalq əlaqələrin genişləndirilməsi, dünyanın aparıcı elm və təhsil müəssisələri ilə əlaqələrin qurulması, müxtəlif istiqamətlərdə beynəlxalq akkreditasiyaya nail olunması da universitetin öncəlikləri sırasındadır.

## Yeni qəbul olan doktorant və dissertantlarla görüş keçirilib



Tanışlıq xarakterli görüşdə Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin direktoru Nüşabə Quliyeva fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul olan gənc alim və tədqiqatçıları təbrik edib və gələcək elmi fəaliyyətlərində onlara uğurlar arzulayıb. Ardınca görüş iştirakçılarına doktorant və dissertantların təhsil müddətində vəzifələri və hüquqları haqqında məlumat verilib, dissertasiyanın hazırlanmasına qoyulan tələblər, dissertasiyanın təqdim olunması və müdafiəsi, Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər, universitetdə doktorant və dissertantlarla işin təşkili kimi məlumatlar çatdırılıb.

## Asif Hacıyevin "Şuşa: ədəbi-mədəni mühit" kitabının təqdimatı keçirilib




Azərbaycan dili və ədəbiyyat kafedrasının professoru Asif Hacıyevin "Şuşa: ədəbi-mədəni mühit" kitabının təqdimatı keçirilib. Kitabda Şuşanın mədəni və ədəbi həyatının səciyyəvi xüsusiyyətlərindən, şuşalı ədiblərin və mədəniyyət xadimlərinin yaradıcılığından, Şuşa ədəbi-mədəni mühitinin milli mədəniyyətin inkişafına təsirindən, işğalın ağır nəticələrindən və 44 günlük müharibədəki tarixi zəfərdən sonra şəhərin mədəni mühitinin bərpasından bəhs edilir. Kitab Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının "Şuşa ili"nə dəyərli töhfəsidir. Əsər dördcildlik monoqrafik toplunun üçüncü kitabıdır.
Kitabın təqdimat mərasimi Azərbaycan dili və ədəbiyyat kafedrası tərəfindən təşkil olunub. Tədbirdə kitabın müəllifi, professor Asif Hacıyev çıxış edərək Qarabağ zəfəri ilə Azərbaycanın tarixində yeni bir səhifə açıldığını və Şuşanın dünyanın diqqət mərkəzində olduğunu bildirib. Asif Hacıyev qeyd edib ki, Şuşa çoxcəhətliliyi ilə Azərbaycan mədəniyyətində unikal yer tutur. Həmçinin Azərbaycanın ictimai-siyasi və mədəni həyatında müstəsna xidmətləri olan görkəmli şəxsiyyətlərin vətənidir.
Tədbirin qonağı, misirli alim, filologiya üzrə fəlsəfə doktoru Əhməd Sami Elaydi bildirib ki, Azərbaycanın Qarabağ zəfəri İslam dünyası üçün də mühüm hadisədir və dünya müsəlmanlarını ürəkdən sevindirir.
Digər çıxış edənlər - Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri Ülviyyə Rəhimova, kafedranın professoru Qorxmaz Quliyev, Humanitar fənlər fakültəsinin dekanı Səfər Məmmədov, İctimai elmlər kafedrasının müdiri Qabil Əliyev, Tərcümə və filologiya kafedrasının müdiri Samirə Məmmədova kitab haqqında fikirlərini bölüşüb, müəllifə Şuşa haqqında dolğun məlumat verən kitab ərsəyə gətirdiyi üçün təşəkkür ediblər.

## Çingiz Qaraşarlının "Avropa tarixinin türkdilli dövrü" kitabının təqdimatı keçirilib

Filologiya elmləri doktoru, professor Çingiz Qaraşarlının "Avropa tarixinin türkdilli dövrü" adlı yeni çapdan çıxan kitabının təqdimat mərasimi və elmi seminarı keçirilib. Tədbir Tərcümə və filologiya kafedrası ilə Azərbaycan dili və ədəbiyyat kafedrası tərəfindən birgə təşkil olunub.
Kitabın müəllifi, professor Çingiz Qaraşarlı əsərin ərsəyə gəlməsi ideyası və prosesi haqqında iştirakçılara məlumat verib, göstərdikləri diqqətə görə Azərbaycan Universitetinin heyətinə minnətdarlığını ifadə edib. Müəllif qeyd edib ki, ingilis dilində də nəşr olunan kitabda "Türklərin yurdu Mərkəzi Asiyadırmı?" sualına cavab axtarılır, Mərkəzi Avropada türk mədəniyyəti, Avropada türk sivilizasiyasının çox qədim çağlardan mövcud olması, Anadoluda türk tarixinin başlanğıcı kimi mövzulara aydınlıq gətirilir.




Tədbirdə qeyd edilib ki, təqdim olunan kitabın dilçiliklə yanaşı tarixi əhəmiyyəti də böyükdür. Bu baxımdan türklərin Anadoluda, bütövlükdə Aralıq dənizi hövzəsində gəlmə olduğunu iddia edən çağdaş avropalılar da, Anadolunun "min illik türk tarixi" ideyasına alışmış bəzi tədqiqatçılar da Herodotu, Homeri və sonrakı çağlara aid Qərb tarixçilərini diqqətlə oxumalı və Avropanın dörd min illik türk tarixi ilə tanış olmalıdırlar.
Daha sonra Azərbaycan dili və ədəbiyyat kafedrasının professorları Qorxmaz Quliyev, Asif Hacıyev, Humanitar fənlər fakültəsinin dekanı Səfər Məmmədov, seminara onlayn qoşulan Şimali Kipr Türk Cümhuriyyətinin Lefke Avropa Universitetinin Türk dili və ədəbiyyatı kafedrasının müdiri, dosent Nazim Muradov, Tarix kafedrasının müdiri, dosent İhsan Tayhani, Almaniyadan tarixçi alim, professor Ələsgər Siyablı çıxış edərək kitab haqqında fikirlərini bölüşüb, müəllifə təşəkkür ediblər.

## "İpək yolu" elmi jurnalı "Index Copernicus" bazasında qeydiyyata alınıb




"Index Copernicus" bazasından Azərbaycan Universitetinə daxil olan rəsmi məktubda bildirilir ki, "İpək yolu" elmi jurnalı qeyd olunan bazada indekslənmək üçün qəbul edilib. "Index Copernicus" bazası Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi filologiya ixtisası üzrə dövri elmi nəşrlərin daxil olduğu beynəlxalq xülasələndirmə və indeksləmə sistemləri siyahısına daxildir. Bununla əlaqədar redaktorları, redaksiya heyətinin üzvlərini, rəyçiləri, müəllifləri təbrik edir, bu uğurun əldə edilməsində onların rolunu və töhfələrini yüksək qiymətləndiririk.

## Prorektor Yusif Qasımov konfransda plenar məruzə ilə çıxış edib



Elmi işlər üzrə prorektor Yusif Qasımov Sumqayıt Dövlət Universitetinin 60 illik yubileyinə həsr olunmuş "Universitet elminin və təhsilinin müasir problemləri" mövzusunda respublika elmi konfransının plenar iclasında məruzə ilə çıxış edib. Tədbir onlayn formatda təşkil olunub.
Yusif Qasımovun məruzəsi "Azərbaycanda ali təhsil: müasir çağırışlar" mövzusuna həsr olunub. Məruzədə dünyada elm və təhsil sahəsində son 10 il ərzində baş verən keyfiyyət dəyişikliklərinə toxunulub, universitet-sənaye əməkdaşlığının əhəmiyyəti vurğulanıb.
Yusif Qasımov çıxışında Prezident İlham Əliyevin Sumqayıt Dövlət Universitetinin 60 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Sumqayıt Dövlət Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında sərəncamlarını da xatırladıb, bu ali məktəbin "Əməkdar müəllim" fəxri adına layiq görülən və "Tərəqqi" medalı ilə təltif olunan əməkdaşlarını təbrik edib.

## Professor Asif Hacıyev beynəlxalq dəyirmi masada çıxış edib



Azərbaycan dili və ədəbiyyat kafedrasının professoru Asif Hacıyev Rusiya Federasiyasının Volqoqrad şəhərinin M.K.Aqaşina adına Mərkəzi Kitabxanasının və Volqoqrad Dövlət Sosial Pedaqoji Universitetinin keçirdiyi "Stalinqrad döyüşü haqqında ədəbiyyat: resepsiya və tərcümə" mövzusunda beynəlxalq dəyirmi masada onlayn formatda çıxış edib.
Asif Hacıyev çıxışında qeyd edib ki, Azərbaycanın böyük töhfə verdiyi tarixi qələbə, Stalinqrad döyüşünün və onun iştirakçılarının müqəddəs xatirəsi xalqımızın milli yaddaşında yaşayır. Azərbaycan Veteranlar Şurası üzvlərinin, Stalinqrad döyüşü qəhrəmanlarının iştirakı ilə İkinci Dünya müharibəsində və Stalinqrad döyüşündə qazanılan ortaq qələbəyə həsr olunmuş yubiley tədbirləri keçirilir, veteranlara xüsusi qayğı göstərilir. Müharibə mövzusu Azərbaycan xalqı üçün olduqca aktualdır. 30 il ərzində qonşu ölkə Ermənistan tərəfindən ərazi iddiaları ilə təcavüzə məruz qalmış və torpaqları işğal olunmuş Azərbaycan öz tarixi ərazilərini işğaldan azad edib. Prezident İlham Əliyevin bəyan etdiyi kimi Azərbaycan indi bütün ölkələrlə dostluq və əməkdaşlıq münasibəti qurmaq əzmindədir.

## Əməkdaşlarımız beynəlxalq konqresdə çıxış ediblər




Əməkdaşlarımız Türkiyənin İzmir şəhərində keçirilən beynəlxalq "Artemis" sosial, sağlamlıq və idman elmləri konqresində məruzə ilə çıxış ediblər. Hibrid formatda təşkil olunan tədbirdə rektorun müşaviri, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin müdiri Nüşabə Quliyeva "Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə strateji əməkdaşlığı" mövzusunda çıxış edib. İctimai elmlər kafedrasının müdiri, professor Qabil Əliyevin məruzəsi "Postmünaqişə dövründə Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işləri", kafedranın müəllimi Rəna Əsədovanın məruzəsi isə "Birinci Dünya Müharibəsi dövründə Gəncə quberniyasında etno-demoqrafik dəyişikliklər" mövzusuna həsr olunub.
Qeyd edək ki, beynəlxalq tədbirdə Türkiyə, İspaniya, Azərbaycan və Şimali Makedoniya daxil olmaqla 20 fərqli ölkədən nümayəndə iştirak edib.

## Elmi məqalələrin nüfuzlu jurnallarda nəşrinə dair seminar keçirilib



Tərcümə və filologiya kafedrasının təşəbbüsü ilə kafedranın professoru Azad Məmmədov tərəfindən "İndekslənən bazalarda çap olunan məqalələrin yazı qaydaları və formatı" mövzusunda seminar keçirilib. Seminarda elmi məqalələrin yüksək indeksli jurnallarda çap edilməsi üçün tələb olunan standartlarda hazırlanıb təqdim edilməsi məsələləri müzakirə edilib.
Seminar elmi məqalənin annotasiyası, ədəbiyyat siyahısı, yazı stilinin jurnalın tələblərinə uyğun hazırlanması, eləcə də istinadların jurnalın tələblərinə uyğun, tam və düzgün şəkildə yazılması mövzularını əhatə edib.
Azad Məmmədov iştirakçıların mövzuya dair suallarını da cavablandırıb.

## "Kölgə iqtisadiyyatı" mövzusunda elmi seminar keçirilib

İqtisadiyyat və idarəetmə kafedrası ilə Maliyyə və mühasibat kafedrasının birgə elmi seminarı onlayn formatda təşkil olunub. Seminarda İqtisadiyyat və idarəetmə kafedrasının müəllimi Həsən Rəhimli "Kölgə iqtisadiyyatı" mövzusunda apardığı araşdırmasını təqdim edib.



Seminarda əsasən, kölgə iqtisadiyyatı ilə bağlı əsas anlayış və kateqoriyalar; dünyada və ölkədə kölgə iqtisadiyyatı üzrə rəsmi statistika; kölgə iqtisadiyyatının yaranma səbəbləri; kölgə iqtisadiyyatının müsbət və mənfi təsirləri; kölgə iqtisadiyyatının strukturu; kriminal və qeyri-kriminal xarakterli iqtisadi fəaliyyətlər: boz və qara kölgə iqtisadiyyatı; qara iqtisadiyyatda iqtisadi və maliyyə cinayətkarlığı; kölgə iqtisadiyyatının biznesə təsiri; iqtisadi cinayətlər və onlarla mübarizə; maliyyə cinayətləri və maliyyə fırıldaqçılığı; maliyyə və mühasibat sahəsində vergidən yayınma; maliyyə hesabatlarında saxta və yalan informasiyaların aşkarlanması; kölgə iqtisadiyyatının aradan qaldırılması yolları kimi problemlərə toxunulub və müzakirə edilib.
Elmi seminarın sonunda kölgə iqtisadiyyatının ÜDM-də payının azaldılması və onun mənfi təsirlərinin aradan qaldırılması istiqamətində təkliflər səsləndirilib, qarşıdakı dövrdə kafedra müəllimlərinin yazacağı elmi məqalə və tezislərdə mövzuya yer verilməsi qərara alınıb.

## Riyaziyyat və informatika kafedrasının elmi seminarı keçirilib



Riyaziyyat və informatika kafedrasının elmi seminarında kafedranın müəllimi Bəhrəm Əzizov "Qərar qəbuletmə yardım sistemlərinin köməyi ilə sosial-iqtisadi və ekoloji sahəyə aid avtomatlaşdırılmış sistemlərin layihələndirilmə-sində kompleks yanaşma" mövzusunda məruzə ilə çıxış edib.
Məruzə bəzi mürəkkəb strukturlu məsələlərin həllində çoxlu sayda ekspertlərin bilik və təcrübəsindən istifadə edilməsinin zəruriliyinin vurğulanmasına həsr olunub. Mürəkkəb sistemlərdə qərar qəbuletmə məsələsinin həlli üçün tələb olunan ekspert informasiyasının, yəni onların biliyinə və təcrübəsinə əsaslanan məlumatların toplanması və gələcəkdə istifadə olunması məqsədilə saxlanması böyük əhəmiyyət kəsb edir. Böyük həcmə malik olan ekspert informasiyasının saxlanması, bu informasiyanın emalı və nəticələrin çıxarılması böyük əmək və vaxt tələb edir. Bu tip məsələlər real vaxtda dəqiq və tez nəticənin çıxarılması, yəni həllin tapılmasını tələb edir. Məruzəçi bu tip problemlərin həllinə yeni kompleks yanaşma təklif edib və nəticələri Mathlab/Simulink mühitində realizə edib.
Elmi seminarda Riyaziyyat və informatika kafedrasının əməkdaşları və kompüter mühəndisliyi ixtisası üzrə təhsil alan magistratura tələbələri iştirak edib.

## Dissertant Telman Musayevin dissertasiya işinin ilkin müzakirəsi keçirilib

İctimai elmlər kafedrasının iclasında Musayev Telman Fərman oğlunun tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yerinə yetirdiyi "XIX-XX əsrin əvvəllərində Qarabağda toxuculuq sənətinin inkişaf tarixi" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirilib.



İclasda dissertasiya işinin tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün Ali Attestasiya Komissiyası tərəfindən dissertasiya işinə qoyulan tələblərə cavab verdiyi qeyd olunub və müdafiənin növbəti mərhələsinə tövsiyə olunması qərara alınıb. Dissertantın elmi rəhbəri professor Camal Mustafayevdir.

## Gənc tədqiqatçılar üçün elmi işin hazırlanmasına dair silsilə mühazirələr təşkil olunub



Magistratura II kurs tələbələri, doktorant, dissertant və gənc tədqiqatçıların iştirak etdiyi silsilə mühazirələr Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin təşəbbüsü və kafedraların dəstəyi ilə təşkil olunub.
Mühazirələr elmi tədqiqat işinin planlaşdırılması və aparılması qaydaları, yazılması, nəşr olunması, dissertasiyanın nəzəri əsasları, tədqiqatda metod və metodologiya problemləri, elmi məqalənin strukturu, SCOPUS bazasında uyğun jurnallarla iş, dissertasiyanın strukturu, məqalələrin beynəlxalq indeksli bazalara təqdim olunması, dissertasiyanın müzakirəyə təqdim olunması qaydaları və bu kimi mövzuları əhatə edib.
3 ay davam edən və 10 mövzudan ibarət olan silsilə mühazirələrin məqsədi elmi fəaliyyət prosesində gənc tədqiqatçılara istiqamət verməkdən ibarət olub.

## "Azərbaycan xalqının etnogenezi və milli kimlik məsələsi" beynəlxalq konfransı 28 oktyabr 2022-ci il



Beynəlxalq konfransın açılış mərasimində Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva və Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, millət vəkili Ceyhun Məmmədov çıxış edib. Səadət Əliyeva qeyd edib ki, rəhbərlik etdiyi ali təhsil müəssisəsi keçirdiyi konfranslarda Azərbaycan xalqının və dövlətinin həyatında aktual olan mövzuların müzakirəsi üçün platforma təqdim edir. Rektor çıxışında vurğulayıb ki, tədbirdə Azərbaycan xalqının etnogenezi tarix, dil, mədəniyyət kimi aspektlərdən təhlil olunacaq və xalqımızın qədimliyi, tarixi torpaqlarımızın sahibi olması elmi faktlarla bir daha sübut olunacaq.



Rektor vurğulayıb ki, bu günlər hər birimiz üçün xüsusi bir dövrdür.  Çünki iki il bundan əvvəl yaşadığımız hər gün bizi Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə qələbəyə yaxınlaşdırırdı. Hərbi qələbədən sonra daha çətin olanı – siyasi və hüquqi qələbədir ki, burada da elmi yanaşmalar xüsusi əhəmiyyət kəsb edir. Ceyhun Məmmədov isə bildirib ki, Azərbaycan cəmiyyətində milli məsələlər ilə bağlı müzakirələr aktualdır və dünyada Azərbaycan əleyhinə ciddi təbliğat aparılır. Millət vəkili diqqətə çatdırıb ki, konfrans bu baxımdan əhəmiyyət kəsb edir. Konfransın plenar məruzəçiləri AMEA-nın həqiqi üzvləri akademik Yaqub Mahmudov və akademik Nizami Cəfərov olub. Akademik Yaqub Mahmudovun məruzəsi "Azərbaycan xalqının təşəkkülü prosesi necə saxtalaşdırılmışdır" mövzusuna həsr olunub. Akademik Nizami Cəfərov isə "Qədim zamanlarda Azərbaycanda etnodil prosesləri" mövzusunda məruzə ilə çıxış edib. Plenar iclas Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru Yusif Qasımovun çıxışı ilə yekunlaşıb. Prorektor konfransın təşkilat komitəsinə səmərəli fəaliyyət üçün təşəkkür edib.



Açılışın və plenar iclasın ardından konfrans işini tarix (Azərbaycan xalqının etnogenezi Qafqaz regionunda etnik proseslər kontekstində), filologiya (Filoloji düşüncə tərzində etnogenez problemləri), fəlsəfə (Etnogenez və identikliyin fəlsəfi aspektləri), mədəniyyət (Mədəniyyət və incəsənət abidələrimizdə milli kimlik məsələsi) olmaqla 4 bölmə iclasında davam etdirib. Konfransın bölmə iclaslarında Azərbaycan türklərinin qədim zamanlardan Qafqazda yaşamasının sübutları, qonşularla münasibətləri, Qafqaz xalqlarının formalaşmasına təsir edən amillər, filoloji düşüncə tərzində etnogenez məsələləri, etnogenez və identikliyin fəlsəfi aspektləri, mədəniyyət və incəsənət nümunələrində milli kimlik elementlərinin araşdırılması kimi məsələlər müzakirə olunub.



## “İnformasiya təhlükəsizliyi: problemlər və perspektivlər” II beynəlxalq konfransı 25 noyabr 2022-ci il



Azərbaycan Universiteti, Ukraynanın Xarkov Milli Radioelektronika Universiteti və Heydər Əliyev adına Hərbi İnstitut ilə birlikdə təşkil edilən konfrans informasiya texnologiyalarının sürətli inkişafı və onun insan fəaliyyətinin bütün sahələrinə total nüfuz etdiyi indiki şəraitdə məlumatların icazəsiz girişinin, istifadəsinin, açıqlanmasının, təhrif olunmasının, dəyişdirilməsinin, araşdırılmasının, qeyd edilməsinin və ya məhv edilməsinin qarşısının alınmasının elmi nəzəri, praktiki və texnoloji aspektlərinə həsr olunub.



Konfransın açılış mərasimində Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru Yusif Qasımov, Xarkov Milli Radioelektronika Universitetinin prorektoru Murad Omarov və Heydər Əliyev adına Hərbi İnstitutun elmi tədqiqat şöbəsinin professoru Ramid Hüseynovun çıxışları dinlənilib. Çıxışlarda qeyd olunub ki, son 20 ildə dünyada baş verən proseslər göstərir ki, informasiyanı yaratmaq qədər, onu qorumaq da mühüm əhəmiyyət kəsb edir. Bu məsələ hazırda dünyanın demək olar ki, bütün universitet və elm mərkəzlərində müzakirə olunur. İnformasiya təhlükəsizliyinin təmin olunması məsələsi bütün dünyada olduğu kimi Azərbaycanda da olduqca aktual məsələdir. Konfransda aparılan müzakirələrin bu sahəyə müsbət töhfələr verəcəyi şübhəsizdir.




Konfransın plenar iclasında Xarkov Milli Radioelektronika Universitetinin prorektoru Murad Omarovun “Kibertəhlükəsizlik təhsili: problemlər və perspektivlər”, Elm və Təhsil Nazirliyi İdarəetmə Sistemləri İnstitutunun baş direktoru, akademik Əli Abbasovun “İnformasiya təhlükəsizliyində süni intellekt: problemlər və perspektivlər”, Xarkov Milli Radioelektronika Universitetinin professoru Marina Yevdekimenkonun “Security-based routing models with traffic engineering support” və Azərbaycan Texniki Universitetinin Kompüter sistemləri və şəbəkələri kafedrasının müdiri, professor Vaqif Qasımovun “İnformasiya təhlükəsizliyi: müasir vəziyyət və elmi tədqiqat istiqamətləri” mövzusunda məruzələri dinlənilib. Plenar iclasın və fasilənin ardından konfrans işini “İnformasiya təhlükəsizliyinin texniki məsələləri” və “Proqram təminatı əsaslı informasiya təhlükəsizliyi” olmaqla iki bölmə iclasında davam etdirib. Bölmə iclaslarına İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin dekanı Asif Paşayev və Riyaziyyat və informatika kafedrasının müdiri Rəşad Məstəliyev rəhbərlik edib.



## Azərbaycan Universitetinin 2022-ci il üzrə elmi hesabat iclası keçirilib



Azərbaycan Universitetinin 2022-ci il üzrə elmi hesabatını Elm şöbəsinin müdiri, riyaziyyat üzrə fəlsəfə doktoru Lətifə Ağamalıyeva təqdim edib. Hesabat məruzəsi universitetdə keçirilmiş elmi tədbirlər, beynəlxalq və respublika səviyyəli konfransların hesabatı, "İpək yolu" elmi jurnalının fəaliyyəti, beynəlxalq elmi əməkdaşlıq, dərc edilmiş elmi işlər, universitet əməkdaşlarının elmi aktivliyi kimi mövzuları əhatə edib.
Hesabat məruzəsində qeyd olunub ki, başa çatmaqda olan 2022-ci il elmi fəaliyyət baxımından olduqca məhsuldar keçib və Azərbaycan Universitetinin elmi həyatında bir sıra əlamətdar hadisələrlə yadda qalıb.



Belə ki, Elsevier şirkətinin Scopus elmmetrik bazasının 2022-ci il üzrə "Scimago Institutions Rankings" hesabatı açıqlanıb. Hesabata görə Azərbaycan Universiteti elmi tədqiqat aktivliyi üzrə böyük uğura imza ataraq dünya reytinqinə daxil olub. Respublika üzrə ali təhsil müəssisələrindən yalnız dördünün daxil olduğu siyahıda 2-ci yerdə qərarlaşan Azərbaycan Universiteti bu reytinq üzrə ən yüksək kateqoriya olan Q1 kateqoriyasına daxil olub.
Məruzədə həmçinin bildirilib ki, hesabat ilində Azərbaycan Universitetində 2-si beynəlxalq və 1-i respublika səviyyəli olmaqla 3 elmi konfrans keçirilib. Azərbaycan Universitetinin elmi jurnalı "İpək yolu" 2022-ci ildə Index Copernicus bazasında qeydiyyata alınıb. Jurnalın 2022-ci ildə 4 nömrəsi nəşr edilib. Elmi jurnalın ikinci nömrəsi "İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyi"nə, üçüncü nömrəsi isə "Şuşa ili"nə həsr olunub.
Azərbaycan Universitetinin əməkdaşları Tünzalə Verdiyeva, Aygün Muradlı və Nərgiz Hüseynovanın "Impact of the Covid-19 pandemic on the well-being of children with disabilities and their parents in Azerbaijan" adlı məqaləsi dünyanın nüfuzlu elmi nəşriyyatlarından biri olan Springer tərəfindən çap olunan kitaba daxil edilib. Layihə Fransanın Sorbon Universiteti tərəfindən həyata keçirilib.



Hesabat ilində universitetin əməkdaşları müxtəlif xarici ölkə universitetlərinin əməkdaşları ilə birgə elmi-tədqiqat işləri aparıb və birgə elmi məqalələr dərc etdiriblər. Türkiyə universitetləri ilə birgə elmi tədbir və konfranslar təşkil olunub, ABŞ-ın Sent-Luis Vaşinqton Universiteti ilə əməkdaşlıq görüşləri keçirilib. Bildirilib ki, 2022-ci ildə Azərbaycan Universiteti əməkdaşlarının indekslənən jurnallarda çap edilmiş məqalələrinə 1285 istinad edilib. Bütün bunların nəticəsi kimi Universitetin Clavirate Analytics Agentliyinin Web of Science bazası əsasında müəyyən edilən Hirş indeksi 2022-ci ildə 24-ə yüksəlib.
Məruzədə hesabat ilində çap olunan monoqrafiya, dərslik, dərs vəsaitləri haqqında da məlumat verilib. Bildirilib ki, universitet əməkdaşlarının Azərbaycanda nəşr olunan elmi jurnallarda 44, xaricdə nəşr olunan elmi jurnallarda 106, indekslənən jurnallarda 97 məqaləsi çap olunub. Hesabat iclasında kafedralar üzrə elmi fəaliyyətin qiymətləndirilməsi üçün tərtib olunan bal cədvəli və universitetdə tətbiq edilən elmi-tədqiqat fəaliyyətinin qiymətləndirilməsi sisteminə əsasən ən çox bal toplamış kafedraların adları da açıqlanıb.









# ECAR layihəsinin təlim və görüşləri oktyabr-dekabr aylarında davam edib

Azərbaycan Universitetinin tərəfdaş olduğu "Azərbaycanda Rektorlar Konfransının yaradılması" (ECAR) adlı "Erasmus+" layihəsinin təlim və görüşləri 2022-ci ilin oktyabr-dekabr aylarında davam edib. Təlim və görüşlərdə Azərbaycan Universitetini rektorun müşaviri, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin direktoru Nüşabə Quliyeva və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Bəxtiyar Bədəlov təmsil edib.

Oktyabr ayında Fransa Beynəlxalq Təhsil təşkilatında keçirilən "Rektor konfranslarında komitələrin rolu və fəaliyyəti" təlimində Avropalı partnyorlar konfransın tərkibində yaradılan komitələrin təşkilati strukturu, fəaliyyət istiqamətləri, funksiyaları haqqında təcrübələrini bölüşüb.

Ali təhsilin beynəlmiləlləşməsinə dair ikigünlük təlim isə Avropa İdarəetmə İnkişafı Fondu (EFMD Global) təşkilatının dəstəyi ilə baş tutub. Bakı Biznes Universitetində təşkil olunan təlimdə iştirakçılara fondun fəaliyyəti və xidmətləri, ali təhsil müəssisələrinin keyfiyyət göstəricilərinin artırılması, beynəlmiləlləşmə və qloballaşma, korporativ məsuliyyət, beynəlxalq əməkdaşlıq və bu kimi mövzular üzrə məlumat verilib.

Təlimdə həmçinin "Azərbaycanda Rektorlar Konfransı"nın jurnalının hazırlanması və dərci ilə əlaqədar hazırlıq işləri müzakirə olunub.

Dekabr ayında Belçikada keçirilən tədbir və seminarlarda isə EFMD Global və layihənin Avropalı partnyorları tərəfindən keyfiyyət təminatı və beynəlmiləlləşmə, tədqiqatların və tədrisin beynəlmiləlləşməsi, beynəlmiləlləşmə strategiyalarının inkişaf etdirilməsi, beynəlxalq layihələr, Alman Akademik Mübadilə Xidməti və bu kimi mövzularda təqdimatlar keçirilib.

Avropa Komissiyasının maliyyə dəstəyi ilə həyata keçirilən layihənin koordinatoru Bakı Biznes Universitetidir. 2021-2024-cü illəri əhatə edən layihənin məqsədi milli inkişaf strategiyalarına uyğun olaraq rektorlar konfransının yaradılması yolu ilə universitetlər və digər maraqlı tərəflər arasında milli şəbəkə və əməkdaşlığı inkişaf etdirməkdir. Layihədə Azərbaycandan 20, Avropadan 5 ali təhsil müəssisəsi və təşkilat iştirak edir.







# AZƏRBAYCAN XALQININ MƏDƏNİ İRS NÜMUNƏLƏRİ









## Azərbaycan Muğamı

*Azərbaycan muğamı 7 noyabr 2003-cü il tarixində UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri elan olunub, 2008-ci ildə isə UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilib.*

Azərbaycan ərazisində tarixən bir sıra muğam ifaçılıq məktəbləri formalaşıb. Musiqinin bu janrı ölkənin bütün bölgələrinə yayılsa da, muğam yaradıcılığının əsas mərkəzləri Bakı, Şamaxı, Gəncə, Naxçıvan və Şuşa hesab olunur. Bu mərkəzlər arasında "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan Şuşada formalaşmış Qarabağ muğam məktəbi xüsusi maraq kəsb edir. Qarabağın muğam ifaçılarının əsas vizit kartı "Qarabağ şikəstəsi" muğamıdır.

Azərbaycanın bir çox görkəmli muğam ustaları var. Bir qədər qədimlərə getsək, Səttarın, Hacı Hüsünün, Məşədi İsinin, Ələsgər Şirinin, tarzən Sadıqcanın və başqalarının adlarını çəkə bilərik. XX əsrin əvvəllərində isə Cabbar Qaryağdıoğlu, Məşədi Cəmil Əmirov, Seyid Şuşinski, Keçəçi oğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, İslam Abdullayev və başqaları məşhur olub. Sonradan bu estafeti Xan Şuşinski, Zülfü Adıgözəlov, Yaqub Məmmədov, Süleyman Abdullayev, Rübabə Muradova, Fatma Mehrəliyeva, İslam Rzayev, Arif Babayev kimi korifey sənətkarlarımız davam etdiriblər. Alim Qasımov, Mənsum İbrahimov kimi dahi ustadlar isə müasir Azərbaycan muğam sənətinin parlaq simalarıdır.

Tarixi çox qədim olan muğamın yaranması keçən minilliyə, İslamaqədərki dövrə, bir janr kimi formalaşması XII–XIII əsrlərə - "Müsəlman Renessansı" dövrünə aid edilir. Bu dövrdə məhz poeziyanın yüksəlişi (Nizami, Xaqani, Nəsimi, Füzuli və başqa şairlər) muğamın da inkişafına təkan verib.

Azərbaycan xalq musiqisində 7 əsas, 3 köməkçi muğam var. Əsas muğamlar "Rast", "Şur", "Segah", "Çahargah", "Bayatı-Şiraz", "Şüştər" və "Humayun", köməkçi muğamlar isə "Şahnaz", "Sarənc" və "2-ci növ Çahargah"dır.

Muğam ustad-şagird məktəbi keçmiş, ifaçılıq texnikasını mənimsəmiş, muğam və poeziya qanunauyğunluqlarını yaxşı bilən, eləcə də virtuoz improvizəçi və bəstəkar keyfiyyətlərinə malik olan peşəkar musiqiçilər tərəfindən şifahi ənənələr əsasında yaradılır. Azərbaycan bəstəkarlarının bir çox əsərləri öz kökü etibarilə muğamlara bağlıdır. Fikrət Əmirov 1948-ci ildə "Şur" və "Kürd-Ovşarı" simfonik muğamlarını yazmaqla dünya musiqi tarixində simfonik muğam janrının əsasını qoyub. Görkəmli bəstəkar və dirijor Niyazinin "Rast" (1949) simfonik muğamı da bu janrda yaradılmış ən gözəl əsərlərdən biridir.

Muğam bu gün də peşəkar musiqi janrı kimi milli musiqi mədəniyyətimizin bünövrəsini təşkil edir və yaşayır; sənət incisi kimi dünyaya yayılır və gələcək nəsillərə ötürülür.



## Azərbaycan Aşıq Sənəti

*28 Sentyabr-2 oktyabr 2009-cu il tarixində Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 4-cü Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, Azərbaycan Aşıq Sənəti UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilib.*

Aşıq sənəti Azərbaycanın Qazax, Tovuz, Şamaxı rayonlarında, həmçinin tarixi Göyçə və Borçalı mahallarında xüsusilə vüsət tapıb. Kökləri qədimlərə gedib çıxan və X-XII əsrlərdə formalaşmağa başlayan aşıq sənəti kiçik bir tamaşadır, burada musiqi, saz və müəllif-aşıq vəhdət təşkil edir. Aşıq sənətinə qədim epik dastanlar, xalqın azadlığını, qəhrəmanlığını, dostluğu, məhəbbəti vəsf edən mahnılar daxildir. Aşıq şeir yazır, musiqi bəstələyir, həm də oxuyaraq sazda çalır və rəqs edir. Onu çox vaxt balaban və nəfəsli alətlər ansamblı da müşayiət edir. Lakin aşığın əsas musiqi aləti sazdır.
Qədim zamanlarda aşıqları ozan, varsaq, dədə adlandırırdılar. Onların tarixi keçmişi haqqında məlumatlar eposlarda, hekayətlərdə və mahnılarda qorunub saxlanaraq bu günümüzə qədər gəlib çatıb. Azərbaycan aşıqlarının ən qədim epik yaradıcılıq nümunəsi VII əsrə aid edilən "Kitabi Dədə Qorqud" dastanıdır.
Aşıq poeziyasının əsas vəzni heca vəznidir.

Aşıqların poetik yaradıcılığında Azərbaycan milli poeziya janrları olan qoşma, müxəmməs, gəraylı, qıfılbənd, ustadnamə, təcnis, vücudnamə və digərləri xüsusi yer tutur. Bu janrlar, həmçinin dastanın bir hissəsi də ola bilər.
Azərbaycanın peşəkar aşıqları iki qismə bölünür: ifaçı aşıqlar və şair aşıqlar. İfaçı aşıqlar poetik yaradıcılıqla məşğul olmurlar. Şair aşıqlar dastançılıq fəaliyyəti ilə yanaşı fərdi poetik yaradıcılıqla da məşğul olurlar. Azərbaycanın ədəbiyyatına güclü təsir göstərmiş aşıqlardan Qurbanini (XVI əsr), Aşıq Abbas Tufarqanlını (XVII əsr), Aşıq Valehi (XVIII əsr), Aşıq Ələsgəri (XVIII-XIX əsr), Aşıq Hüseyn Bozalqanlını (XIX əsr) göstərmək olar. Peşəkar aşıqlar arasında tanınmış qadın aşıqlar da vardır: Aşıq Pəri (XIX əsr), Aşıq Həmayıl (XIX əsr), Aşıq Bəsti, Aşıq Dilşad (XX əsr) və başqaları. Qədimdə aşıqlar tək-tək və ya sazəndələrlə birlikdə səfərə çıxır, şəhər və kəndləri dolaşır, toylarda, el şənliklərində çıxış edirdilər.
Aşıq sənəti bəstəkarların yaradıcılığına da təsir göstərib. İlk dəfə aşıq musiqisinin xüsusiyyətləri dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov tərəfindən "Koroğlu" operasında istifadə olunub. Müasir musiqinin texniki vasitələri ilə aşıq musiqisinin xüsusiyyətlərini birləşdirən bəstəkar Qara Qarayev isə "Üçüncü simfoniya"sının ikinci hissəsində onların vəhdətini yarada bilib.



## "Çövkən" ənənəvi Qarabağ atüstü oyunu

*"Çövkən" ənənəvi Qarabağ atüstü oyunu 3 dekabr 2013-cü ildə UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilib.*

"Çövkən" sözü türk mənşəlidir, "çubuq ilə vurmaq" mənasını verir. Tarixçilərin fikrinə görə, bu oyun eramızın birinci minilliyinin ortalarında yaranıb və bir neçə yüzilliklər ərzində Azərbaycan, İran, Türkiyə, Orta Asiya və digər qonşu ölkələrdə məşhur olub. Komanda oyun növü olan çövkənin Azərbaycan ərazisində çox qədimdən məşhur olduğu faktlarla təsdiqlənir.
Beyləqan rayonu ərazisində aparılmış arxeoloji qazıntılar zamanı tapılan şirli qab üzərində çövkən oyununun fraqmenti əks olunub. Bu tapıntı çövkən oyununun IX əsrdə Beyləqanda mövcud olduğunu sübut edir.
Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında, "Kitabi Dədə Qorqud" eposunda çövkən oyunu haqqında məlumatlara rast gəlinir. Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında Şirin çövkən meydanında Sasani hökmdarı Xosrov Pərvizdən geri qalmır. Bu da sübut edir ki, Azərbaycanda çövkən oyununda təkcə kişilər deyil, qadınlar da iştirak ediblər.
Tarixən, çövkən oyununu Azərbaycan aristokratları və şah ailəsinin üzvləri oynayırdılar. Bu oyunda cəld və qısaboy, xüsusi təlim görmüş atlar iştirak etdiyindən, bu oyun Qarabağda çox məşhur idi. Qarabağ atları öz gözəlliyi ilə seçilir və bu oyun üçün əhilləşdirilirdilər.
Çövkənin qədim Azərbaycan oyunu olmasını sübut edən faktlardan biri də Azərbaycan miniatürlərində bu oyunun dönə-dönə təsvir edilməsi, qədim əlyazmalarda onun keçirilmə qaydaları haqqında məlumat verilməsidir. "Xosrov və Şirin" poemasına çəkilmiş miniatürlərdə, o cümlədən Təbriz miniatürlərində çövkən oyununun səhnələri əks olunur.
Çövkən oyununun da, Şərqdə təşəkkül tapmış başqa idman növləri kimi, dünyanın daha uzaq regionlarına yayılmasında və inkişaf etdirilməsində ingilislərin rolu böyük olub. Belə ki, Böyük İpək Yolu sayəsində çövkən Hindistanda məşhurlaşıb, oradan XII əsrdə Avropaya gətirilib və Avropada, eləcə də Amerikada geniş yayılıb. İngilislərin təşəbbüsü ilə bu oyun at polosu adını alıb, yeni qaydalar əsasında inkişaf etdirilib və 1900-cü ildə Parisdə keçirilmiş İkinci Olimpiya Oyunlarının proqramına daxil edilib.
Bu oyunun yeni tarixi 2000-ci illərdə başlayıb, 2006-cı ildə Prezident kuboku turniri keçirilib və turnirdə ölkənin 8 regionu təmsil olunub. 2013-cü ilin sentyabr ayında Bakıda at polosu üzrə dünya kuboku yarışı keçirilib. Azərbaycanda bu gün də ölkənin müxtəlif rayonlarında çövkən milli oyunu üzrə yarışlar keçirilir.



## Lahıc misgərlik sənəti

*"Lahıcın misgərlik sənəti" 30 noyabr – 4 dekabr 2015-ci il tarixində Namibiyada keçirilmiş Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 10-cu sessiyasında UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilib.*

Lahıc dağlıq qəsəbəsi Azərbaycanın qədim və nadir yaşayış məskənlərindən biridir. 1500 illik tarixi olan Lahıc, sərt sıldırım qayaların və dərin dərələrin əhatəsində, Girdimançayın sahilində, 1375 metr hündürlükdə yerləşir. Qədim şəhər quruculuğu və memarlıq sənətinin orijinal abidəsi kimi "Böyük İpək Yolu" Beynəlxalq Turist marşrutuna daxil edilən Lahıc, XIV-XV əsrlərin dövlət tarixi-mədəni qoruğu statusuna malikdir.

İlk baxışdan öz qeyri-adi tikilişi və memarlığı ilə insanı məftun edən, tarixi abidələrlə zəngin olan Lahıc, özünəməxsus adət-ənənələri, yüksək sənətkarlıqla işlənmiş tətbiqi-sənət əsərləri ilə də məşhurdur. Qəsəbə, XVIII-XIX əsrlərdə mis qablar və silah istehsalının əsas mərkəzlərindən biri sayılırdı. Bu qab və silahlar yüksək zövqlə hazırlanır, xarici bazarlara çıxarılırdı.

Bəlkə də dünyanın heç bir yerində misgərlik Lahıcdakı qədər inkişaf etməyib. Vaxtilə tacirlər Bakıdan, Tiflisdən, Borçalı və Zəngəzur mədənlərindən Lahıca karvan-karvan xam mis daşıyırdılar. Bu da bəs eləmirdi. Suriya, Türkiyə, İngiltərə və Həbəşistandan da mis gətirilirdi. Buradan isə hazır məhsul uzaq ölkələrə aparılırdı. Azərbaycanın misgərlik krallığı, qədim sənətlər mərkəzi olan Lahıcın mis qab-qacağı həm yerli sakinlərin evlərində, həm də muzeylərdə özünə layiqli yer tapıb. Məsələn, bu qab-qacaqlar Luvrda nümayiş olunur. Berlində Azərbaycan silah hazırlayanların ornamentlərlə bəzədilmiş tüfəng, qılınc və xəncərləri sərgilənir.

Misgərlik sənəti Lahıcda bu gün də qorunub saxlanır. Sənətkarların əl işlərinə xüsusən əcnəbi turistlər daha çox maraq göstərirlər. Onlar misgər emalatxanasının qarşısında hökmən ayaq saxlayır, heç olmasa bir mis əşya alıb aparırlar. Bu ucqar dağ kəndində İrandan, Rusiyadan, Yaponiyadan, İtaliyadan, İspaniyadan gəlmiş turistlərin gəzib dolaşması o qədər adiləşib ki, artıq heç kəsi təəccübləndirmir.

Özünəməxsus simasını qoruyub saxlayan Lahıcın digər bir özəlliyi daş döşənmiş küçə və meydanlardır. Onun küçələri Girdiman çayının ağ çay daşlarından salınıb. İki və üç mərtəbəli evlər də daşlardan tikilib. Bu daş küçələrin altından dörd yüz il bundan əvvəl çəkilmiş kanalizasiya xətlərinin keçdiyini isə çox adam bilmir. Ən maraqlısı odur ki, saxsı borulardan ibarət bu kanalizasiyanın hara gedib çıxdığını, hara töküldüyünü indiyədək müəyyənləşdirmək mümkün olmayıb.



## Çay mədəniyyəti

*Çay mədəniyyəti 28 noyabr – 3 dekabr 2022-ci il tarixlərində Mərakeş Krallığının Rabat şəhərində keçirilən UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 17-ci sessiyasında Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilib. "Çay mədəniyyəti: kimliyin, qonaqpərvərliyin və sosial əlaqələrin rəmzi" nominasiyası Azərbaycan və Türkiyə nümayəndə heyətləri tərəfindən birgə hazırlanıb.*

Azərbaycanda çay mədəniyyəti qədim keçmişə və köklü ənənələrə sahibdir, hətta Qafqazın da ən qədim çay ənənələrinə sahib ölkəsi hesab olunur. Burada çay qonaqpərvərlik və qonağa hörmətin simvolu kimi xarakterizə edilir. Azərbaycanda istənilən bir evə qonaq olsanız, ilk olaraq sizə çay süfrəsi açılacaq.
Mütəxəssislərin araşdırmasına əsasən, Azərbaycanda orta hesabla hər il 10 min tondan artıq çay içilir. Çay, içki olaraq sadəcə sərinləşdirici və sakitləşdirici təsirə malik olmaqla yetinməyib, Azərbaycan süfrələrinin əvəzolunmaz bəzəyinə çevrilib. Çay süfrəsi ictimai bağlılıq və ünsiyyət vasitəsidir. Məclislər və qonaqlıqlar həmişə çayla başlayır və çayla yekunlaşır.
Azərbaycanlılar üçün çay süfrəsi söhbətləşmək və istirahət etmək üçün ən ideal seçimdir. Çay süfrəyə xüsusi sinilərdə və armudu stəkanda, yanında limon və kəllə qəndlə təqdim olunur. Çay süfrəsində çərəz də olur, mürəbbə, şəkərbura, paxlava kimi şirniyyatlar da.
Çay Azərbaycanda elçilik mərasimlərinin də tacı sayılır. Mərasimin sonunda razılıq əlaməti olaraq şirin çayın içilməsi də buna dəlalət edir.
Burada çay insanlar üçün özünəməxsus hazırlanma qaydaları olan, nəsildən-nəslə ötürülən ictimai mirasdır. Azərbaycanda çayı sadə formada dəmləməklə yanaşı, ona xüsusi ətirləndirici bitkilərlə əlavə tam qatmaq da geniş yayılmış ənənədir. Belə ki, Azərbaycan təbiətinin əvəzsiz incilərindən hesab olunan kəklikotu, yarpız, itburnu, nanə, mixək və digər ətirləndirici bitkilərlə birgə dəmlənmiş halda da süfrəyə gətirilir.
Azərbaycanda çayın vətəni cənub zonası hesab olunur. Xüsusən Astara, Lənkaran, Masallı, şimalda isə qismən Balakən, Qax və Zaqatala ərazisində müxtəlif növ çay bitkisi əkilib-becərilir, həmçinin istehsal edilərək satışa təqdim olunur.
Çay bitkisi ilk dəfə 1912-ci ildə Azərbaycanın Lənkəran bölgəsinə gətirilərək orada əkilib və ilk dəfə olaraq çay zavodu 1937-ci ildə Lənkəranda tikilib. Bundan sonra Azərbaycanda çayın kütləvi səkildə istehsalına başlanılıb. Rəsmi qəbullardan tutmuş elçilik mərasimlərinədək milli mentalitetin embleminə çevrilmiş Azərbaycan çayı zərif ətri və xoş rəngi ilə artıq bütün dünyada tanınır.



*Şuşanın görkəmli şəxsiyyətləri*

## Şair, rəssam, xəttat, musiqi nəzəriyyəçisi, ensiklopedist alim...

# Mir Möhsün Nəvvab - 190

*Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında XIX əsr Qarabağ mühitinin böyük rolu olub. Bu zəngin mədəniyyət beşiyində çoxlu şair, musiqiçi, tarixçi, ədəbiyyatşünas, incəsənət xadimi yetişib. XIX əsr Qarabağ mühitinin Azərbaycana bəxş etdiyi görkəmli simalardan biri şair, rəssam, xəttat, musiqi nəzəriyyəçisi, pedaqoq, Qarabağ ədəbi mühitinin inkişafında özünəməxsus rolu olmuş ensiklopedist alim Mir Möhsün Nəvvabdır. Azərbaycan mədəniyyət tarixinə müxtəlif elmlərə bələd olan açıqfikirli ziyalı kimi daxil olan Mir Möhsün Nəvvab, Şuşanın ictimai həyatında həmişə qabaqcıl və o dövr üçün mütərəqqi mövqedə durub. Hələ Sovet dövründə adı UNESCO-nun siyahısına düşən Nəvvab həm də böyük filoloqdur. Bu il Mir Möhsün Nəvvabın (1833-1918) anadan olmasının 190 ili tamam olur.*

Azərbaycan mədəniyyətinin inkişafında və zənginləşməsində XIX əsr Qarabağ ədəbi mühitinin misilsiz rolu olub. Qarabağın baş tacı olan Şuşa Azərbaycanın mədəniyyət mərkəzi olmaqla yanaşı, həm də görkəmli və istedadlı şəxsiyyətlərin, sənətkarların, yazıçıların, bəstəkarların, xanəndələrin vətənidir. Məşhur alim və musiqişünas Firidun Şuşinski yazır ki, XIX əsrdə bu kiçik şəhərdə 95 şair, 22 musiqişünas, 38 peşəkar müğənni, 16 rəssam, 5 astronom, 18 memar, 16 həkim yaşayıb. Şəhərdə 10-dan artıq mədrəsə və müxtəlif tipli məktəb fəaliyyət göstərir, zəngin kitabxanalarda xəttatlar kitabların üzünü köçürür, rəssamlar şəhər binalarının divarlarına naqşlər vurur, kitablara miniatürlər çəkirdilər. Xalça emalatxanalarında sonralar dünyanın ən böyük muzeylərinin bəzəyi olacaq xalçalar toxunurdu. Musiqiçilər Qarabağ muğam məktəbinin adını daim uca tuturdular.

Mir Möhsün Nəvvab (Mir Möhsün Hacı Mir Əhməd oğlu Nəvvab Ağamirzadə) bu qeyri-adi yaradıcılıq mühitində yetişən görkəmli şəxsiyyətlərdən sadəcə biridir. Azərbaycanın ədəbi, mədəni və ictimai həyatında xüsusi iz buraxmış Nəvvabın elmi və ictimai fəaliyyəti çoxşaxəli və zəngin, bədii yaradıcılığı geniş və rəngarəngdir.
1833-cü ildə Şuşada Hacı Seyid Əhmədin ailəsində anadan olan Mir Möhsün Nəvvab mədrəsə təhsili alıb, ərəb, fars, türk dillərini mükəmməl mənimsəyib, Molla Abbas Cavanşir Sarıcalının mədrəsəsində astronomiya, kimya, riyaziyyat kimi elmlərin əsaslarına yiyələnib.
Uzun ömrü boyunca Şuşanın mədəni və ictimai həyatında fəal iştirak edən Mir Möhsün Nəvvab "Məclisi-fəramuşan" adlı ədəbi məclisin və "Məclisi-xanəndə" adlı musiqi məclisinin yaradıcısı və rəhbəri olub. Şeirlər yazıb, özünün açdığı mətbəədə kitablar nəşr edib. Elm və incəsənətin

müxtəlif sahələrinə həsr olunmuş 20-dən artıq kitabın müəllifi olan Nəvvab müəllimliklə də məşğul olub. Təşkil etdiyi yeni üsullu məktəbdə şagirdlər üçün dərsliklər yazıb, fars dilindən dərs vəsaiti kimi istifadə olunan kitabları tərcümə edib.

XIX əsrin ikinci yarısında Azərbaycanın bir sıra şəhərlərində musiqi məclisləri, cəmiyyətləri, dərnəkləri təşkil olunur, ədəbi məclislər dövrün ziyalılarını bir araya gətirən, mühüm hadisələrin müzakirə olunmasına xidmət edən mərkəz funksiyasını da yerinə yetirirdi. Bakıda Məşədi Məlik Mənsurovun, Şamaxıda Mahmud Ağanın, Şuşada isə Xarrat Qulu Məhəmməd oğlunun və Mir Möhsün Nəvvabın musiqi məclislərinin Azərbaycan musiqisinin inkişafında əhəmiyyətli rolu olub.

Şuşada birinci musiqi məclisi klassik Şərq musiqisinin bilicisi Xarrat Qulu (1823-1883) tərəfindən təşkil edilib. Dini məqsədlə yaradılan və məhərrəmlik mərasimləri zamanı təşkil olunan məclisdə həm də muğam sənəti öyrədilirdi. Azərbaycanın muğam sənətinin inkişafında böyük rol oynayan bu məclisin üzvlərindən olan Hacı Hüsü, Məşədi İsi, Əbdülbağı Zülalov, Dəli İsmayıl, Keştazlı Həşim, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu Şuşa vokal məktəbinin parlaq nümayəndələridir. Xarrat Quludan sonra 80-ci illərdə Şuşada "Məclisi-Fərəmuşan" (Unudulmuşların məclisi) və "Məclisi xanəndə" (Musiqiçilər məclisi) yaranıb ki, yuxarıda qeyd edildiyi kimi onların rəhbəri Mir Möhsün Nəvvab idi. 1872-1910-cu illərdə fəaliyyət göstərən "Məclisi-fəramuşan" Şuşanın ədəbi-mədəni həyatında mühüm rol oynayıb, ədəbi prosesin şaxələnməsinə öz töhfəsini verib. **Məclisdə ədəbi məsələlər müzakirə olunur, yeni şeirlər oxunur, bu şeirlərə bəstələnmiş musiqilər dinlənilirdi. Məclis təkcə ədibləri biraraya toplamır, həm də onların əsərlərinin xalq arasında yayılmasına köməklik edirdi.**

XIX əsrin 80-ci illərində Nəvvabın məşhur xanəndə Hacı Hüsü ilə birgə yaratdığı "Musiqiçilər məclisi" yalnız Qarabağın deyil, bütün Azərbaycanın mədəni həyatında mühüm hadisə idi. Burada musiqinin estetik problemləri, ifaçılıq, muğam sənəti müzakirə olunurdu. Maraqlıdır ki, bu musiqi məclisi bir çox musiqiçilər üçün ilk təhsil rolunu oynayıb. Sonralar məşhur xanəndə olan İslam Abdullayev ilk musiqi təhsilinə sözügedən məclisdə yiyələnib, Məşədi Cəmil Əmirov musiqi nəzəriyyəsi dərslərini Mir Möhsün Nəvvabdan alıb, Seyid Şuşinski Şərq muğamları və xalq musiqisinin incəliklərini ondan öyrənib. Bu cəmiyyətlər Azərbaycandakı digər eyni məqsədli məclislər olan Şuşadakı "Məclisi-üns", Şamaxıdakı "Beytüs-Səfa, Bakıdakı "Məcməüş-şüəra" ilə sıx əlaqə saxlayıb. Nəvvab pedaqoji fəaliyyətlə də məşğul olub. Onun məktəbi XIX əsrin 90-cı illərində fəaliyyətə başlayıb. Burada Azərbaycan dili, ədəbiyyat, fars dili və digər fənlər tədris edilir, dünyəvi elmlər haqqında məlumat verilirdi. Kimya laboratoriyasında şagirdləri ilə sınaqlar keçirən Nəvvab, burada orta əsrlərdə yaşamış kimyagərlər tərəfindən verilən nüsxələri yoxlayırdı. Mir Möhsün Nəvvabın çox mühüm xidmətlərindən biri də öz məktəbində tədris etmək üçün dərslik və dərs vəsaitləri tərtib etməsi idi.

XIX əsrin sonunda onun təsis etdiyi şəxsi mətbəənin Azərbaycan kitab mədəniyyətinin inkişafında böyük rolu olub. Nəvvab həmin mətbəədə öz əsərlərindən başqa, digər şairlərin də əsərlərini çap edib. Sənətşünaslıq doktoru N. Miklaşevskaya yazır: "Əgər Nəvvabın çapçılıq fəaliyyətini ciddi öyrənib onun bu sahədəki bütün işini dərindən təhlil edən olarsa, bəlkə də belə bir nəticəyə gələrik ki, Azərbaycanın ilk çapçısı Mir Möhsün Nəvvabdır".

1903-cü ildə Şuşada kitabxana və qiraətxana açan Nəvvab daim yeniliyə meyl edir, mədəni mərkəzlərlə əlaqə saxlayır, rəhbərlik etdiyi məclislərin üzvlərini dünya yenilikləri ilə tanış etmək üçün Bakıdan "Əkinçi", Tiflisdən "Ziya", "Kəşkül", Bağçasaraydan "Tərcüman" qəzetlərini, Hindistandan "Həblül-mətin" məcmuəsini alırdı. Qiraətxanaya müxtəlif illərdə İstanbuldan, Tehrandan, Moskvadan, Peterburqdan qəzet və jurnallar gəlirdi.

Mir Möhsün Nəvvabın ən böyük xidmətlərindən biri də qiymətli elmi, tarixi, bədii əsərləridir. Elmin müxtəlif sahələrini bilməsi nəticəsində "Kəşfül-həqiqə" (3 cilddə), "Bəhrül-hüzən", "Kənzül-mühən", "Vüzuhül-ərqam", "Təzkirə", "Məzamir", "Şəmsül-hidayə", "Şərhi-üstürlab", "500 nəsihət" (Nəsihətnamə), "Müseyibnamə", "Ziyaül-ənvar", "Nurül-ənvar", "Erməni-müsəlman davası" və sair kimi dəyərli əsərlər yazaraq zəngin bir irs qoyub gedib.

Nəvvab demək olar ki, bütün əsərlərini öz dəst-xəttilə köçürərək əlyazma kitabı formasına salıb. Kollektiv zəhmətlə yaranan əlyazma kitabını Nəvvab özü hazırlayaraq bu işin öhdəsindən tək gəlib və orta əsrlərdə yaranmış Azərbaycan əlyazma kitabı sənəti ənənəsinə sadiq qalaraq poliqrafik qaydalara yerli-yerində əməl edib.

Bu əsərlərin əksəriyyəti müəllifin öz xətti ilə avtoqraf şəklində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsində mühafizə edilir. Dövrün şəraitinə uyğun olaraq bu əsərlər həm fars, həm də Azərbaycan (türk) dilində yazılıb.




Son dövrlərdə Nəvvabın yaradıcılığına diqqətin kifayət qədər artdığı müşahidə edilir. Musiqiyə, rəssamlığa, tarixə, bədii yaradıcılığına aid bir sıra əsərləri hələ sağlığında - XX əsrin əvvəllərində nəşr olunub və onlar haqqında sonralar elmi-tədqiqat işləri yazılıb. Bədii yaradıcılığı haqqında dərsliklərdə, elmi ədəbiyyatda məlumat verilib. Fəqət astronomiya və musiqi ilə bağlı əsərləri tam açılmayıb, külliyyatı tam halda bu günədək hələ də çap olunmayıb.

**Mir Möhsün Nəvvabın əsərləri**

"*Vüzuhül-ərqam*" *risaləsi:* Mir Möhsün Nəvvab "Vüzuhül-ərqam" risaləsini (Rəqəmlərin izahı) 1884-cü ildə Şuşada yazıb. "Vüzuhül-ərqam" XIX əsrin sonunda Azərbaycan musiqisi haqqında Azərbaycan dilində (ərəb əlifbası ilə) yazılmış və çap edilmiş yeganə risalə idi. Məşhur musiqi traktatı olan bu risalə ilk dəfə 1913-cü ildə Bakıda, Orucov qardaşlarının mətbəəsində ərəb əlifbası ilə nəşr olunub.

Nəvvab risaləsində ifaçılıq qaydalarına böyük əhəmiyyət verir, onun estetika, akustika məsələlərini əsas şərtlərdən hesab edir. Bu, həm də onu sübut edir ki, Mir Möhsün Nəvvabın dövründə Qarabağda, Şuşada yüksək səviyyəli ifaçılıq sənətinə tələbat olduqca böyük idi.

Həmin risaləsində Mir Möhsün ayrı-ayrı muğamların, bəzi dəstgahların mənşəyi və onların adlarının kökü haqqında məsələləri araşdırır, muğamların şeir mətnləri ilə əlaqəliliyi, ifaçı ilə dinləyicinin qarşılıqlı münasibətləri, akustika baxımından onların optimal yerləşməsi problemlərinə toxunur. Nəvvab ilk dəfə olaraq, dəstgah terminindən istifadə edir, o vaxt Qarabağda məlum olan altı dəstgahın adını çəkir: Rast, Mahur, Şahnaz, Rahavi, yaxud Rahab, Çahargah və Nəva. Nəvvabın sözlərinə əsasən, ifa olunan dəstgahın tərkibi bir çox hallarda ifaçının zövqündən və qabiliyyətindən asılı olur. Həmin əsərdə Qarabağ musiqiçiləri tərəfindən ifa olunan 82 mahnı və muğamdan da bəhs olunur.

Mir Möhsün bir neçə muğamın mənşəyini və onların adının etimologiyasını araşdırır. Belə ki, Azərbaycan, Nişapur, Zabuli, Bağdadi, Şirvani, Qacarı, Şah Xətai və başqa muğamların adlarını onların yaranmasında rol oynamış şəxslərlə və yer adları ilə; Rast muğamını bahar mehi, Rəhavini yağış damlaları, Çahargahı ildırım çaxışı, Dügahı fontan vuran bulaqlarla, Humayunu quşların uçuşu, Nəvanı bədbəxt sevgililərin ah-naləsi, Mahuru suların şırıltısı, Şahnazı bülbüllərin cəh-cəhi, Üşşaqı quşların havada süzməsi, Üzzalı meteoritlərin hərəkəti ilə əlaqələndirir. Muğamların emosional təsiri haqqında Nəvvab yazır ki, Üşşaq, Busəlik və Nəva şücaət və hünər göstərməyə ruhlandırır, Bozarq, Rahavi, Zəngulə, Zirəfkəndi, Hüseyni kədərli duyğular oyadır. Nəvvab əsərdə musiqinin müalicəvi əhəmiyyəti barədə də bir sıra maraqlı fikirlər söyləyir. Əsər bu sözlərlə bitir: "Bu risalə Vətən elminin qüdrətini artırmaq məqsədilə yazılmışdır".

“*Təzkireyi-Nəvvab*” *toplusu:* Nəvvabın əsərləri içərisində “Təzkireyi-Nəvvab” toplusu da maraq doğurur. Burada orta əsrlərdə Qarabağdan çıxmış 100-dən artıq şairin həyatı və yaradıcılığı haqqında məlumat toplanıb. Təzkirə 1913-cü ildə Bakıda kitab şəklində nəşr olunub. Lakin müəllif onu 1891-ci ildən yazmağa başlayıb.
“*Kifayətül-ətfal*” *kitabı:* Nəvvab riyaziyyat, kimya və astronomiya ilə maraqlanırdı. O, öz evində iki teleskop qoyaraq, kiçik bir rəsədxana və kimya laboratoriyası yaratmışdı. 1899-cu ildə dərslik kimi qələmə aldığı “Kifayətül-ətfal” kitabında o, göy cisimlərinin yerləşməsi və günəş tutulmaları haqqında cədvəllər tərtib etmişdi.



“*1905-1906-cı illərdə erməni-müsəlman davası*” *əsəri:* Mir Möhsün Nəvvab yaşadığı dövrdə baş verən hadisələrdən kənarda qalmayıb, tariximizin ən faciəli, qanlı səhifələrindən birini təşkil edən 1905-1906-cı illərdə Qarabağda, o cümlədən də Şuşa şəhərində ermənilər tərəfindən törədilən fitnə-fəsadı, vəhşilik və cinayət əməllərini hərtərəfli təsvir edərək qələmə alıb. Bu gün ilə səsləşən, Dağlıq Qarabağ probleminin tarixi köklərinin öyrənilməsi, onu ortaya atmış erməni millətçiləri və onların havadarlarının niyyətlərini ifşa etmək baxımından Nəvvabın “Təvarixi-rəzm və şurişi tayifeyi-ərəməniyeyi-Qafqaz ba firqeyi müsəlmanan” (Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iğtişaş tarixləri) adlandırdığı bu əsər son dərəcə qiymətli mənbədir. Əsərdə Şuşada və Qarabağın başqa kəndlərində erməni millətçilərinin Azərbaycan türklərinə qarşı törətdikləri cinayətlər haqqında ayrı-ayrı epizodlarda geniş məlumat verilir, bir sıra aktual məsələlərə aydınlıq gətirilir. Real faktlar əsasında qələmə alınan bu əsər son dövrdə aşkarlanaraq ilk dəfə 1993-cü ildə “1905-1906-cı illərdə erməni-müsəlman davası” adı ilə nəşr edilib.
*Mir Möhsün Nəvvabın* “*Divan*”*ı*: Nəvvabın bədii irsini əks etdirən türkcə “Divan”ı bizə 1894-cü ildə müəllif tərəfindən köçürülmüş əlyazma kitabı şəklində gəlib çatıb. Nəvvab klassik şeirin demək olar ki, bütün janrlarında qələmini sınayıb. “Divan”a şairin lirik, ictimai-siyasi məzmunlu, müxtəlif janrlarda yazılmış şeirləri ilə yanaşı, müasiri olan Xurşidbanu Natəvan, Həsənəli xan Qaradaği, Mirzə Ələsgər Növrəs, Behram bəy Fedai, Məhzun, Mirzə Əbdül Şahin, Kəminə, Seyid Əzim Şirvani, Mirzə Cəfər Qasımzadə və başqalarının ona yazdıqları şeirlərə cavabı da daxil edilib.
Mir Möhsün Nəvvabın musiqiyə həsr etdiyi “Kəşfül-həqiqəti-məsnəvi” əsəri də məlumdur. “Nəsihətnamə” əsərində cavanlara verdiyi nəsihətlərin sayı 500-dən artıqdır. Etik görüşləri müəyyən mənada onun “Kifayətül-ətfal”, “Nurül-Ənvar" və “Pəndnamə” kimi kitablarında da öz əksini tapıb.
Qarabağ və bütün Azərbaycan incəsənətinə ən böyük töhfəsini isə Nəvvab heç şübhəsiz, öz bədii yaradıcılığı ilə verib. Bir çox akvarel rəsmləri, kitab miniatürləri və bir neçə bina və məscidə vurduğu naxışlar bizə yadigar qalıb. Nəvvabın milli klassik bədii ənənələrə bağlı olan rəsm əsərləri Azərbaycan xalqının təsviri sənət irsinin mühüm hissəsini təşkil edir. Onun “Quşlar”, “Güllər”, “Teymurun portreti” rəsmləri xüsusilə məşhurdur. Yuxarı Gövhər Ağa məscidinin minarələrinin ornamentləri və otaqların divar rəsmləri Mir Möhsün Nəvvab tərəfindən işlənib.

**Mir Möhsün Nəvvabın ev muzeyi**



Mir Möhsün Nəvvabın vaxtilə yaşadığı və fəaliyyət göstərdiyi ev 1990-cı ilin noyabr ayında bərpa edilərək ev muzeyinə çevrilib. Muzeydə Nəvvabın həyat və yaradıcılığından bəhs edən 130 eksponat sərgilənirdi. Burada sənətkara məxsus çap maşını, çapçılıq fəaliyyətini sübut edən eksponatlar, teleskop, özünün çəkdiyi rəsm əsərləri var idi. Şuşa şəhərinin 1992-ci ildə ermənilər tərəfindən işğal edilməsindən sonra həm muzeyin binası, həm



də eksponatları məhv edilib. Əksəriyyətini xilas etmək mümkün olmasa da bəzi eksponatlar işğal dövründə İncəsənət Muzeyində sərgilənib. Məlumdur ki, Nəvvab orta əsrlərə aid Azərbaycan silahlarından ibarət kolleksiya toplayıb. Kolleksiyadakı nümunələr Azərbaycan silahqayırma sənəti baxımından mühüm əhəmiyyət kəsb edir. Belə fərziyyə irəli sürülür ki, Nəvvab kolleksiyanı silahları naturadan çəkmək üçün toplayıb. Nəvvabın kolleksiyasından bir neçə silah Milli Azərbaycan Tarixi Muzeyində qorunur.
Bu günlərdə Qarabağda bərpa-quruculuq işləri sürətlə davam edir, Qarabağın mədəni həyatı yenidən canlanır. Bərpası nəzərdə tutulan abidə və tikililərin içində Mir Möhsün Nəvvabın ev-muzeyinin də olacağı şübhə doğurmur.

**Mir Möhsün Nəvvabın qəbirüstü abidəsi**
Nəvvab 1918-ci ildə Şuşa şəhərində dünyasını dəyişəndə artıq Azərbaycanda və onun hüdudlarından kənarda yaxşı tanınırdı. Vəfat etdiyi gün Şuşaya dizə kimi qar yağıb. Yollarda hərəkət çətinləşsə də, şuşalılar, ətraf rayonların camaatı axın-axın onunla vidalaşmağa gəlib.
Cıdır düzü Şuşalılar üçün ən müqəddəs yer olub. Ən sevilən şəxsiyyətlər dünyadan köç etdikdən sonra Cıdır düzündəki qəbirstanlıqda dəfn olunublar. Mir Möhsün Nəvvabın qəbri də Cıdır düzündədir.
Nəvvabın qəbri üstündəki abidəni 1957-ci ildə heykəltəraş Tokay Məmmədov hazırlayıb. Abidənin memarı Rasim Əbdürrəhmanovdur. 1960-cı ildə UNESCO-nun xətti ilə Mir Möhsüm Nəvvabın qəbri üzərində qırmızı mərmərdən abidə-barelyef qoyulub.



İşğal dövründə ermənilər tərəfindən dağıdılan abidənin qalıqları Şuşanın Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilməsindən sonra aşkar edilib və Heydər Əliyev Fondu tərəfindən bərpa olunub.

# Yeni Elmi Jurnal




"Social Issues" jurnalı sosial elmlər üzrə nəzəriyyələr, metodlar və onların tətbiqlərinə həsr olunmuş, rəyləşdirilən açıq elmi jurnaldır.
"Social Issues" jurnalının məqsədi sosial elmlərin müxtəlif sahələri arasında maneələri aradan qaldırmaq və müasir ümumi tədqiqat metodlarını inkişaf etdirməkdir. Jurnal sosiologiya, mədəni antropologiya, etnoqrafiya, sosial coğrafiya, mədəniyyətşünaslıq, sosial siyasət, sosiolinqvistika və sosial tarix, gender tədqiqatları və s. daxil olmaqla sosial elmlərin müxtəlif istiqaməti üzrə məqalələri qəbul edir.
Jurnal həmçinin Sosial iş və Sosial iş təhsili məsələlərinə həsr edilmiş məqalələri də qəbul edir.

## 10 tələbə və 2 məzun beynəlxalq PTE sertifikatı əldə edib



Azərbaycan Universitetinin 10 tələbəsi, 2 məzunu və müxtəlif universitetlərdən 3 tələbə PTE (Pearson Test of English) imtahanlarında müvəffəqiyyət əldə edərək B1 (level 2) və B2 (level 3) səviyyələrində beynəlxalq dil sertifikatlarına layiq görülüblər. Əldə olunan göstəricilər beynəlxalq imtahanların ekvivalentliyi üzrə B1= IELTS 4-5 və ya TOEFL 57-86-ya, B2= IELTS 5-6.5 və ya TOEFL 87-109-ə bərabərdir.
İmtahan iştirakçıları ilə müqayisədə yüksək nəticə göstərən Sərxan Mövsümov, Leyla Aşurzadə, Kamilla Məmmədova, Nailə Manafova daha üstün sertifikatla (Pass with merit) təltif olunublar.

## "Qiraət"dərnəyində Anarın hekayələrinə nəzər salınıb



Azərbaycan dili və ədəbiyyat kafedrasının baş müəllimi Xəyalə Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən "Qiraət" dərnəyinin növbəti görüşündə iştirakçılara xalq yazıçısı, şair, tərcüməçi, senarist, Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın yaradıcılığı haqqında məlumat verilib.
Tədbirdə tələbələr Anarın yaradıcılığından seçdikləri hekayə, roman və povestlərin məzmununu çatdırıb, "Mən, sən, o və telefon", "Gürcü familyası", "Asılqanda işləyən qadının söhbəti", "Vahimə" və digər əsərlərdə oxucuya çatdırmaq istədiyi məsələləri müzakirə ediblər. Müzakirənin aparıcı prinsipini adı çəkilən hekayələrin filoloji təhlili təşkil edib.

## Turizmçi tələbələr "Galileo" sertifikatını əldə edib



Biznes və iqtisadiyyat fakültəsinin Turizm və otelçilik ixtisası üzrə təhsil alan tələbələri Fariz Mikayılov, Dünya Rufullayeva, Ruqiyə Xəlilova, Ənvər Ağayev, Emin Hüseynov və Səbuhi Atakişiyev "Galileo" bronlaşdırma sistemi kursunu uğurla başa vuraraq müvafiq sertifikatı əldə ediblər. Tələbələrə sertifikatlarını Maliyyə və mühasibat kafedrasının müdiri, dosent Nəriman Böyükkişi və İqtisadiyyat və idarəetmə kafedrasının müəllimi, iqtisad üzrə fəlsəfə doktoru, dosent Qəhrəman Yusupov təqdim edib.
Qeyd edək ki, aviaşirkətlərin və turizm agentliklərinin inteqrasiyası nəticəsində, dörd qlobal bronlaşdırma sistemi (Global Distribution Sistem-GDS) yaradılıb. "Galileo" hazırda dünyadakı dörd qlobal bronlaşdırma sistemindən biridir.

## Danışıq klubu tələbələrin ünsiyyət vərdişlərini təkmilləşdirir

Filologiya və tərcümə kafedrası ilə Xarici dillər kafedrasının birgə təşkilatçılığı ilə ənənəvi olaraq hər həftə təşkil olunan ingilis dilində danışıq klubuna (Conversation Club) universitetin müxtəlif ixtisas və kurslarında təhsil alan tələbələr qatılır. İştirakçılar klubda əvvəldən müəyyənləşdirilən mövzu ətrafında müzakirə aparır, mövzu və tapşırıqlar ətrafında fikirlərini tələbə yoldaşları ilə bölüşürlər. Kluba kafedra müdirləri Samirə Məmmədova və Aygün Qasımova moderatorluq edir.
Klubun məqsədi tələbələrin əldə etdikləri ingilis dili biliklərinin möhkəmləndirilməsi, praktiki danışıq məşğələləri vasitəsilə onların ingilis dilində ünsiyyət vərdişlərinin təkmilləşdirilməsidir.



## Tələbələr üçün "Səhiyyə və xəstə insanların hüquqları" mövzusunda tədbir keçirilib



Sosial iş və Təhsildə sosial-psixoloji xidmət ixtisaslarında təhsil alan tələbələr üçün təşkil olunan maarifləndirmə tədbirinin qonağı "İstanbul Universiteti Cerrahpaşa"nın professoru Aynur Aydın olub. Aynur Aydının çıxışı tibb və hüquq sahələri arasındakı münasibətlər, tibb və hüquq münasibətlərinin yaranmasında əsas rol oynayan malpraktis faktı, insan hüquqlarının spektri, səhiyyə sahəsində insan hüquqları, xəstə hüquqlarına dair beynəlxalq sənədlər, xəstə-həkim münasibətlərinin tənzimlənməsi, həkim hüquqları və bu kimi mövzuları əhatə edib.

## "Empatiya" klubu "Beynəlxalq Əlilliyi olan Şəxslər Günü"nü qeyd edib



Sosial işin təşkili kafedrasının nəzdində fəaliyyət göstərən "Empatiya" klubu tərəfindən "3 dekabr - Beynəlxalq Əlilliyi olan Şəxslər Günü"nə həsr olunmuş "Əngəllər Aşmaq Üçündür!" adlı tədbir keçirilib. Tədbirin moderatorluğunu klubun sədri və Sosial iş ixtisası IV kurs tələbəsi Məhəmməd Ələkbərov edib.
Tədbirdə əlilliyi olan şəxslərin sosial və peşəkar inkişafında sosial işçilərin və sosial iş ixtisasının rolu müzakirə olunub, əlilliyi olan şəxslər üçün motivasiya xarakterli təlimlərin təşkil olunmasının vacibliyi vurğulanıb.

## "Azərbaycanda gender əsaslı cins seçiminin qarşısının alınması" mövzusunda tədbir keçirilib



Tədbirin qonağı "Rasional inkişaf uğrunda" Qadınlar Cəmiyyətinin sədri, "Sağlam təhsil-sağlam xalq" meqalayihəsinin gender blokunun rəhbəri Şəhla İsmayıl olub. Qonaq çıxışında Azərbaycanda əhalinin cins strukturunda müşahidə olunan meylləri tələbələrin nəzərinə çatdırıb və Azərbaycanın dünyada ən yüksək selektiv abort göstəricilərindən birinə malik olduğunu bildirib. Bu göstəricinin patriarxal ailə strukturundan irəli gələn stereotiplər ilə bağlı olduğunu qeyd edən qonaq, gender əsaslı selektiv abortlara qarşı maarifləndirmə tədbirlərinin əhəmiyyətini diqqətə çatdırıb.

## "Empatiya" klubunun illik hesabat iclası keçirilib



Azərbaycan Universitetində Sosial işin təşkili kafedrasının tərkibində fəaliyyət göstərən "Empatiya" klubunun 2022-ci il üzrə hesabat iclası keçirilib. İclasda klubun sədri, Sosial iş ixtisası üzrə IV kurs tələbəsi Məhəmməd Ələkbərov klubun il ərzində keçirdiyi təlimlər haqqında məlumat verib. Sədr qeyd edib ki, təlimlər Sosial iş tələbələri üçün aktual olan mövzulara həsr olunub, onların peşəkar inkişafına və sosial bacarıqlarının artırılmasına istiqamətlənib. Məhəmməd Ələkbərov klubun növbəti fəaliyyət dövründə də məhsuldar fəaliyyət göstərəcəyinə inandığını qeyd edib və yeni seçiləcək sədrə uğurlar arzulayıb.

## IX Daxili Şahmat Turnirinin qalibi Mirhüseyn Ağayev olub



Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş IX Daxili Şahmat Turnirində bu il 22 tələbə iştirak edib. "Blts sistem" üzrə təşkil olunan turnirdə iştirakçılar fərdi şəkildə mübarizə aparıblar.
Turnirin qalibi Marketinq ixtisası üzrə təhsil alan IV kurs tələbəsi Mirhüseyn Ağayev olub. İkinci yeri Sosial iş ixtisası üzrə təhsil alan II kurs tələbəsi Sədi Bəşirov, üçüncü yeri isə Maliyyə ixtisası üzrə təhsil alan III kurs tələbəsi Rəsul Quliyev tutub.
Qaliblər kubok və diplomla mükafatlandırılıb.

## ACM ICPC müsabiqəsinin Azərbaycan Universiteti üzrə kvalifikasiya turu keçirilib



Azərbaycan Universitetində İnformasiya-kommunikasiya texnologiyaları fakültəsi tələbələrinin ACM ICPC (International Collegiate Programming Contest) Beynəlxalq Proqramlaşdırma Müsabiqəsinin 47-ci dünya çempionatının kvalifikasiya turunun yarışları keçirilib.
Onlayn formatda təşkil olunan yarışda hər birində 3 tələbə olmaqla 15 komanda iştirak edib. Tapşırıqlar respublika üzrə mərkəzləşmiş qaydada qeydiyyatdan keçmiş komandaların profillərinə göndərilib. 5 saat davam edən yarışda komandalar bu vaxt ərzində təqdim olunmuş 12 olimpiada tapşırığını yerinə yetirməli olublar.

## Humanitar fənlər fakültəsinin tələbələri "Heydər Əliyev və Azərbaycan tarixi" bilik yarışında iştirak ediblər



Azərbaycan Universitetinin Humanitar fənlər fakültəsinin tələbələri Zivər Məmmədova, Rəşad Kəlbiyev, Nahid Məmmədov, Ağaqulu Əliyev, Əhməd Nəzərli və Musa Xambatlı "Heydər Əliyev və Azərbaycan tarixi" VIII ümumrespublika bilik yarışında iştirak ediblər. Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə artıq ənənəyə çevrilən və bu il səkkizincisi keçirilən yarışda ölkə üzrə 49 ali təhsil müəssisəsinin tələbələri iştirak edib. Azərbaycan Universitetinin komandası ilk onluqda, 9-cu yerdə qərarlaşıb.

## Politologiya tələbələri beynəlxalq konqresdə çıxış ediblər



Azərbaycan Universitetinin Humanitar fənlər fakültəsinin Politologiya ixtisası üzrə təhsil alan I kurs tələbələri Nərmin İbrahimova, Selcan Məmmədova, Rəhim Bayramov, Urşan Məmmədli, Səkinə Mirzəyeva, Səbinə Cəlilova, Ayxan Hüseynov, İlqar Əliyev və Elmar Aslanov VI beynəlxalq Nyu-York akademik tədqiqatlar konqresində məruzə ilə çıxış ediblər. Konqres onlayn formatda təşkil olunub. Beynəlxalq tədbirdə məruzə ilə çıxış edən tələbələrimizə iştirakçı sertifikatı təqdim olunub. Tələbələr məruzələrini konqresin həmsədri, və İctimai elmlər kafedrasının müəllimi Fərahilə Babayeva Şükürovanın rəhbərliyində hazırlayıblar.

## Tələbələr üçün ARPA-nın təqdimatı keçirilib



Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyası (ARPA) İctimai Birliyinin nümayəndələri Biznes və iqtisadiyyat fakültəsinin tələbələri ilə görüşüb. Görüşdə birliyin İdarə Heyətinin sədri Günay Şahbazova, üzvlər üzrə mütəxəssis Tutu Əliyeva, təlim və sertifikasiya üzrə mütəxəssis Solmaz Cəfərli tərəfindən tələbələrə ARPA-nın "Tələbə üzvlük" paketi haqqında məlumat verilib, mövzuya dair suallar cavablandırılıb. Qeyd edək ki, ARPA Azərbaycanda iqtisadiyyatın dayanıqlı inkişafına töhfə vermək məqsədilə 2009-cu ildə təsis olunub. 2019-cu ildə isə peşəkar mühasib təşkilatı kimi akkreditasiyadan keçib.

## Tələbələr üçün "Bir könüllü" təşkilatının təqdimatı keçirilib



Tədbirdə tələbələrə könüllülük fəaliyyətinin üstünlükləri, təşkilata üzv olma prosesi, gələcək layihələr barədə ətraflı məlumat verilib, həmçinin daha əvvəl həyata keçirilən layihələrə dair videoçarxlar təqdim olunub. İnteraktiv formatda təşkil olunan tədbirdə tələbələrlə müxtəlif əyləncəli oyunlar oynanılıb və qaliblərə hədiyyələr təqdim edilib.
Qeyd edək ki, təşkilat "Bir" tələbə-könüllü proqramı kimi 2015-ci ildə Elm və Təhsil Nazirliyi tərəfindən tələbə-könüllülərlə işin sistemləşdirilməsi, könüllülük fəaliyyətinin stimullaşdırılması, tələbələrin dərsdənkənar asudə vaxtlarının səmərəli dəyərləndirilməsi üçün yaradılıb. 2019-cu il 2 avqust tarixindən etibarən isə "Bir könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyi kimi dövlət qeydiyyatına alınıb.

## Müəllim və tələbələrimiz "İrəli" İctimai Birliyinin qonağı olublar



Sosial işin təşkili kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru Tünzalə Verdiyeva, Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş və Gənclərlə iş ixtisaslarında magistratura təhsili alan, Sosial iş və Təhsildə sosial-psixoloji xidmət ixtisaslarında bakalavriat təhsili alan tələbələr "İrəli" İctimai Birliyinin qonağı olublar. Görüşdə birliyin İdarə Heyətinin sədri Şahin Rəhmanlı tələbələrə birliyin fəaliyyəti və həyata keçirdiyi layihələr haqqında məlumat verib, sualları cavablandırıb. Ardınca "Gənclərlə iş və Qeyri-formal təhsil" haqqında təlim və qrup işi keçirilib.

## İKT tələbələri "Milla Süd Zavodu"nda ekskursiyada olublar



İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin İstehlak mallarının ekspertizası və marketinqi ixtisası üzrə təhsil alan tələbələrinin "Milla Süd Zavodu"na ekskursiyası təşkil olunub. Tələbələrə Riyaziyyat və informatika kafedrasının müəllimi Azər Hüseynov rəhbərlik edib.
Ekskursiyada iştirak edən tələbələrə "Milla" markası haqqında məlumat verilib, təhlükəsizlik qaydaları izah olunub. Tələbələr əyani olaraq xama, qatıq, pendir, ayran , yoqurt, kefir, dondurma istehsalı ilə tanış olub, müəssisə daxilində fəaliyyət göstərən keyfiyyətnəzarət laboratoriyalarında istehsal olunan bütün məhsulların orta nümunələrinin keyfiyyət ekspertizasının aparılmasında iştirak ediblər.

## Tələbələr üçün "Karyera planlaması" mövzusunda təlimlər keçirilib



İqtisadiyyat və idarəetmə kafedrasının təşkil etdiyi təlimlərdə Biznes və iqtisadiyyat fakültəsində təhsil alan tələbələr iştirak edib. Təlimlərin əsas mühazirəçisi kafedranın müəllimi Tərlan Rəsulov olub. Tərlan Rəsulov təlimlərdə özünü tanıma, iş dünyasının araşdırılması, ilkin iş təcrübəsi, qərar vermə prosesi, iş axtarma prosesi və karyeranın idarə edilməsi kimi mövzulara toxunub, iştirakçılara CV-lərin düzgün tərtib edilməsi qaydalarını çatdırıb. Təlimlərdə tələbələrə CV tərtib etmək üçün onlayn resurslardan istifadə haqqında da məlumat verilib.

## Peşəkar tərcüməçi Xaqani Əliyev tələbələrə təlim keçib



"Tərcümə zamanı qarşıya çıxan problemlər və onların həlli yolları" mövzusunda təlimi ABŞ-ın Azərbaycandakı səfirliyinin protokol mütəxəssisi və tərcüməçisi Xaqani Əliyev aparıb. Tərcümə və filologiya kafedrasının təşkil etdiyi təlimdə Tərcümə (ingilis dili) ixtisasında təhsil alan tələbələr iştirak edib.
Xaqani Əliyev tələbələrə tərcümə peşəsi, tərcümə anlayışı, tərcümənin növləri və təsnifatı, prinsipləri, tərcümə vərdişlərinin yaradılması və inkişaf etdirilməsi, o cümlədən, tərcümə zamanı qarşıya çıxan problemlərin aradan qaldırılması yolları ilə bağlı faydalı məlumatlar çatdırıb.

## Turizmçi tələbələr üçün "Səfər sığortası" mövzusunda təlim keçirilib



Biznes və iqtisadiyyat fakültəsinin turizm ixtisaslarında təhsil alan tələbələr üçün təşkil olunan təlimi Azərbaycanın sığorta xidmətləri bazarının lider şirkətlərindən biri olan "Paşa Sığorta"nın əməkdaşları aparıb.
Təlimdə şirkətin İnsan resursları departamentinin mütəxəssisi Aysel Mahmudova, hüquqşünas Rafael Quliyev, Səfər sığortası şöbəsinin mütəxəssisi Fərid Əbilov iştirkaçılara sığorta sahələri, sığorta obyekti və predmeti, sığorta müqaviləsi və məzmunu, sığorta hadisəsi barədə məlumatlandırma, sığorta ödənişi, "Sığorta qanunvericiliyi", səfər sığortasının növləri, kriteriyaları, səfər sığortası üzrə tarif və bu kimi digər mövzular haqqında məlumat verib, sualları cavablandırıblar.

## "JOY" təşkilatı Sosial iş tələbələri üçün təlim təşkil edib



"Xüsusi qayğıya ehtiyacı olan uşaqların reabilitasiyasında beynəlxalq yanaşma metodları" mövzusunda təlimi "Joy" Uşaq İnkişafı Mərkəzinin direktoru, uşaq inkişafı üzrə mütəxəssis Lalə Kara və mərkəzin psixoloqu, uşaq inkişafı üzrə mütəxəssis Lalə Vəliyeva aparıb.
Təlim aktiv öyrənmə, uşaqlarda nitq inkişafı, şəkillər və simvollar olmaqla üç hissədən ibarət olub. Birinci hissə aktiv öyrənmə nəzəriyyəsi, prinsipləri və istifadə olunan avadanlıqlar kimi mövzuları əhatə edib. İkinci hissədə tələbələrə Norveçdə bütün məktəbəqədər müəssisələrdə tətbiq olunan TRAS nitq proqramı haqqında, üçüncü hissədə isə alternativ nitq vasitələri haqqında məlumat verilib.

## İKT tələbələri üçün “Data sahəsində karyera imkanları” mövzusunda seminar keçirilib




İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin magistratura  və yuxarı kurs tələbələri üçün təşkil olunan “Data sahəsində texnologiyalar və karyera imkanları” seminarının mühazirəçiləri Azərbaycan Beynəlxalq Bankının baş arxitektoru Elnur Sadıqov və İnsan resuslarının idarəedilməsi departamentinin əməkdaşı Aynur Səmədzadə olub.
Elnur Sadıqov iştirakçılara data texnologiyaları və onların konkret iş sahələrində tətbiq olunmaları haqqında məlumat verib. Aynur Səmədzadənin çıxışı isə Azərbaycan Beynəlxalq Bankında karyera imkanlarına həsr olunub.
Seminar Riyaziyyat və informatika kafedrası və İnformasiya – kommunikasiya texnologiyaları fakültəsinin Tələbə Elmi Cəmiyyəti tərəfindən birgə təşkil olunub.

## İqtisadiyyat və idarəetmə kafedrası “Gerçək marketinq” mövzusunda seminar təşkil edib



Biznes və iqtisadiyyat yönümlü ixtisaslarda təhsil alan, eləcə də bu sahəyə maraq göstərən tələbələr üçün təşkil olunan seminarda İqtisadiyyat və idarəetmə kafedrasının müəllimi Elvin Kərimovun mühazirəsi dinlənilib.
Elvin Kərimov seminarda marketinqin nə olduğu, şirkətlər və müştərilər arasında münasibətlərin tənzimlənməsi, marketinq və insan psixologiyası haqqında məlumat verib, Starbucks, Google, Apple, McDonald's, Zappos.com kimi nəhəng şirkətlərin marketinq siyasətlərini təhlil edib, həmçinin tələbələrin mövzuya dair suallarını cavablandırıb.

## Magistratura tələbələri qafqazinfo.az xəbər saytının redaksiyasında dərs keçiblər




Tərcümə və filologiya kafedrasının müdiri, dosent Samirə Məmmədova magistratura səviyyəsinin Dilşünaslıq (ingilis dili) ixtisasında tədris etdiyi  “Mass medianın üslubu” fənninin növbəti mühazirəsini “Qafqazinfo.az” xəbər saytının redaksiyasında keçib. Dərs, auditoriyadankənar dərslər qrafikinə uyğun olaraq təşkil olunub.
Saytın baş direktoru Elbrus Ərud və redaktoru Emin Səfərov tələbələrə saytın fəaliyyətə başlaması, inkişaf dövrləri, redaksiyanın gündəlik iş rejimi, xəbərlərin hazırlanması və redaktə olunması,  xarici mətbuatdan tərcümə, jurnalistin etik prinsipləri kimi məsələlər haqqında məlumat verib.

## Magistratura tələbələri GİKM Mərkəzi Aparatının iş prosesi ilə tanış olublar



Sosial işin təşkili kafedrasının müəllimi, psixologiya üzrə fəlsəfə doktoru  Aynur Bünyatova və Gənclərlə iş ixtisasında magistratura təhsili alan tələbələr Gənclərin İnkişafı və Karyera Mərkəzinin (GİKM) Mərkəzi Aparatının qonağı olublar. Magistrantlar burada əməkdaşların iş mühiti və iş prosesi ilə yaxından tanış olublar.
Tanışlığın ardından tələbələrə Azərbaycan Gənclər Fondu, respublikanın 55 şəhər və rayonunda fəaliyyət göstərən GİKM nümayəndəliklərinin fəaliyyəti ilə bağlı təqdimat həyata keçirilib və videoçarxlar nümayiş etdirilib.
Görüş Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin təşəbbüsü ilə təşkil olunub.

## Sosial iş tələbələrinin dostluq debatı keçirilib



Azərbaycan Universitetinin və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Sosial iş ixtisası üzrə təhsil alan tələbələri arasında "Ahıl şəxslərin ahıllar evinə yerləşdirilməsi və yerləşdirilməməsi" mövzusunda "dostluq debatı" təşkil olunub.



Debatda hər iki universitetdən ayrılıqda 10 debatçı və 3 spiker çıxış edib. 1-ci spikerlər ümumi ahıllıq və Azərbaycanda ahıl şəxslərin vəziyyətləri haqqında məlumat veriblər. 2-ci spikerlər arqumentlər gətirərək digər qrupun fikirlərini təkzib etməyə çalışıb və nəhayət 3-cü spikerlər problemlə bağlı real həll yolları təklif ediblər.



## Sosial iş tələbələri "Beynəlxalq Miqrantlar Günü" haqqında məlumatlandırılıb



"18 Dekabr – Beynəlxalq Miqrantlar Günü"nə həsr olunan tədbirin qonağı Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü, Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri, fəlsəfə üzrə fəlsəfə doktoru Azər Allahverənov olub. Azər Allahverənov tələbələrə miqrant, miqrasiya, miqrasiya formaları, mənşə və təyinat ölkələri, miqrasiya mübadiləsi, daxili miqrasiya, mədəniyyətlərarası kommunikasiyada miqrantların rolu, miqrantların təşkilatlanması, miqrasiyanın çətinlikləri və yaratdığı təhditlər və bu kimi digər aktual anlayış və mövzular haqqında məlumat verib.

## Baş Narkotiklərlə Mübarizə İdarəsi maarifləndirici tədbir keçirib



Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsi tərəfindən tələbələrimiz üçün "Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə" mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbirin mühazirəçisi polis kapitanı Bəxtiyar Abbaszadə olub. Bəxtiyar Abbaszadə çıxışında narkomaniya və onun dövlət, cəmiyyət və fərd üçün törətdiyi fəsadlar, narkotik istifadəçilərinin üzləşdikləri problemlərdən geniş şəkildə bəhs edib. Bəxtiyar Abbaszadə gəncləri insanı məhvə sürükləyən bu cür maddələrdən və kənar təsirlərdən uzaq olmağa səsləyib.

## Erasmus tələbəsi Dilarə Fətullayevanın Rumıniya təəssüratları



*Yeni bir dünya ilə tanış olmaq istəyənləri "Erasmus+"a qoşulmağa dəvət edirəm*

Dilarə Fətullayeva, Sosial iş, III kurs

2022/2023-cü tədris ilində "Erasmus+" proqramı ilə Rumıniyanın Timișoara Universitetində (The West University of Timisoara) 1 semestrlik təhsil almaq şansı qazanmışam. Dərslər bir müddətdir ki, davam edir və yaxın müddətdə vətənə qayıdacam. Ailə üzvlərimə, müəllimlərimə, qrup yoldaşlarıma danışacaq çox şeyim var.

Düşünürəm ki, mübadilə tələbəsi olmaq fərqli təhsil sistemi ilə qarşılaşmaqla yanaşı, fərqli dünyagörüşləri, fərqli mədəniyyətlər və həyat tərzləri ilə tanış olmağa da imkan yaradır. "Erasmus+" proqramına qoşulmağın ən böyük üstünlüyü də məhz budur. Fərqli ölkələrin, adət-ənənələri fərqli olan xalqların nümayəndələri ilə olan ünsiyyətdə olmaq, mədəniyyətlərini tanımaq və onlara Azərbaycan haqqında məlumat vermək imkanı əldə etmək inanılmaz bir fürsət və şansdır. Mənə verilən bu şansı ən yaxşı şəkildə dəyərləndirməyə çalışır, bu təcrübənin Sosial işçi olaraq da mənə çox şey qatacağına inanıram.

Özünəinamı artırmaq, ingilis dilini təkmilləşdirməklə birlikdə ikinci bir xarici dil öyrənmək, yeni insanlarla tanış olmaq və yeni dostluqlar qurmaq, yeni mədəniyyətlər kəşf etmək, ən vacibi CV-yə yazmaq üçün böyük bir təcrübə əldə etmək - mən bütün bunların hamısına qısaca "yeni bir dünya ilə tanış olmaq" deyirəm. "Yeni bir dünya ilə tanış olmaq" istəyən bütün tələbələri "Erasmus+" proqramına qoşulmağa dəvət edir və tələbələrinə yaratdığı imkanlar üçün universitetimə təşəkkür edirəm.

## 6 tələbə yaz semestrini xarici tərəfdaş universitetlərdə oxuyacaq

Azərbaycan Universitetinin 6 tələbəsi "Erasmus+" mübadilə proqramı çərçivəsində 2022/2023-cü ilin yaz semestrini 3 fərqli ölkədə davam etdirmək hüququ əldə edib. Proqramda iştirak etməyə haqq qazanmış tələbələrdən 4-ü bakalavriat, 2-si isə magistratura səviyyəsində təhsil alır.

Bakalavrlardan Baba Ağamoğlanov, Şirxan Aslanov Xorvatiyanın Dubrovnik Universitetində, Marina Nəsibova, Egemen Zafer Almaniyanın Koblenz Universitetində, magistrantlarımız Ülkər Abdurahmanlı və Tural Həsənli isə İtaliyanın Tuscia Universitetində təhsillərini davam etdirə biləcəklər. Bakalavrlar Baba Ağamoğlanov Marketinq 4-cü kurs, Şirxan Aslanov Dövlət və ictimai münasibətlər 2-ci kurs, Marina Nəsibova Maliyyə 3-cü kurs, Egemen Zafer Biznesin idarə edilməsi 1-ci kurs, magistrantlar Ülkər Abdurahmanlı Gənclərlə iş ixtisası üzrə 2-ci kurs, Tural Həsənli isə Vergi və vergiqoyma ixtisası üzrə 2-ci kurs tələbəsidir.













# Azərbaycan Universiteti 2023/2024-cü tədris ili üçün bakalavriat səviyyəsinə qəbul planı

## I qrup

-İnformasiya təhlükəsizliyi, Azərbaycan bölməsi, Əyani,  25 yer, 2500 manat
-İnformasiya təhlükəsizliyi, ingilis bölməsi, Əyani,  10 yer, 2700 manat

-İnformasiya texnologiyaları, Azərbaycan bölməsi, Əyani,  30 yer, 2200 manat
-İnformasiya texnologiyaları, Azərbaycan bölməsi, Qiyabi,  10 yer, 2000 manat

-Kompüter mühəndisliyi*, Azərbaycan bölməsi, Əyani,  25 yer, 2200 manat

*** Ukraynanın Xarkov Milli Radioelektronika Universiteti (XNURE) ilə birgə ikili diplom proqramı*

## II qrup

-Beynəlxalq ticarət və logistika, Əyani,  20 yer, 2000 manat

-Biznesin idarə edilməsi, Azərbaycan bölməsi, Əyani,  70 yer, 2200 manat
-Biznesin idarə edilməsi, Azərbaycan bölməsi, Qiyabi,  10 yer, 2000 manat
-Biznesin idarə edilməsi, ingilis bölməsi, Əyani,  10 yer, 2500 manat

-İqtisadiyyat, Azərbaycan bölməsi, Əyani,  20 yer, 2200 manat
-İqtisadiyyat, ingilis bölməsi, Əyani,  10 yer, 2500 manat

-Maliyyə, Azərbaycan bölməsi, Əyani,  20 yer, 2200 manat
-Maliyyə, ingilis bölməsi, Əyani,  10 yer, 2500 manat

-Marketinq, Azərbaycan bölməsi, Əyani,  70 yer, 2200 manat
-Marketinq, Azərbaycan bölməsi, Qiyabi,  10 yer, 2000 manat
-Marketinq, ingilis bölməsi, Əyani,  10 yer, 2500 manat

-Menecment, Azərbaycan bölməsi, Əyani,  20 yer, 2200 manat

-Mühasibat, Azərbaycan bölməsi, Əyani,  40 yer, 2200 manat
-Mühasibat, Azərbaycan bölməsi, Qiyabi,  10 yer, 2000 manat
-Mühasibat, ingilis bölməsi, Əyani,  10 yer, 2500 manat

-Turizm işinin təşkili, Azərbaycan bölməsi, Əyani,  70 yer, 2500 manat
-Turizm işinin təşkili, Azərbaycan bölməsi, Qiyabi,  10 yer, 2000 manat

## III qrup

-Korreksiyaedici təlim, Əyani, 20 yer, 2500 manat
-Təhsildə sosial-psixoloji xidmət, Əyani, 30 yer, 2700 manat
-Beynəlxalq münasibətlər, Əyani, 25 yer, 3000 manat
-Dövlət və ictimai münasibətlər, Əyani, 60 yer, 3000 manat
-Fəlsəfə, Əyani, 15 yer, 2500 manat
-Filologiya (Azərbaycan dili və ədəbiyyatı), Əyani, 30 yer, 2700 manat
-Filologiya (ingilis dili və ədəbiyyatı), Əyani, 30 yer, 2700 manat
-Politologiya, Əyani, 25 yer, 3000 manat
-Regionşünaslıq (Avropa ölkələri üzrə), Əyani, 20 yer, 2500 manat
-Tarix, Əyani, 30 yer, 2700 manat
-Tərcümə (ingilis dili), Əyani, 45 yer, 3000 manat
-Muzey, arxiv işi və abidələrin qorunması, Əyani, 30 yer, 2500 manat

-Sosial iş, Azərbaycan bölməsi, Əyani, 100 yer, 2500 manat
-Sosial iş, Azərbaycan bölməsi, Qiyabi, 10 yer, 2000 manat
-Sosial iş, ingilis bölməsi, Əyani, 15 yer, 2700 manat

# Azərbaycan Universiteti 2023/2024-cü tədris ili üçün magistratura səviyyəsinə qəbul planı

-Ədəbiyyatşünaslıq (Amerika ədəbiyyatı), 3 yer, 2000 manat
-Ədəbiyyatşünaslıq (ingilis ədəbiyyatı), 3 yer, 2000 manat
-Azərbaycan dili, 3 yer, 2000 manat
-Azərbaycan ədəbiyyatı, 3 yer, 2000 manat
-Dilşünaslıq (ingilis dili), 3 yer 2000 manat
-Tərcümə (ingilis dili), 3 yer, 1500 manat
-Azərbaycanın qədim və orta əsrlər tarixi, 5 yer, 2000 manat
-Azərbaycanın yeni və ən yeni tarixi, 5 yer, 2000 manat

-Bank işi, 8 yer, 2000 manat
-Vergi və vergiqoyma, 8 yer, 2000 manat
-İqtisadiyyatın hüquqi tənzimlənməsi, 8 yer, 2000 manat
-Turizmin iqtisadiyyatı, 8 yer, 2000 manat
-Heyətin idarə edilməsi, Azərbaycan bölməsi, 5 yer, 2000 manat
-Heyətin idarə edilməsi, ingilis bölməsi, 5 yer, 2200 manat
-Menecment (sahələr üzrə), Azərbaycan bölməsi, 5 yer, 2000 manat
-Menecment (sahələr üzrə), ingilis bölməsi, 5 yer, 2200 manat

-Kompüter mühəndisliyi, 10 yer, 2000 manat
-Kibertəhlükəsizlik, 10 yer, 2200 manat

-Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş, 15 yer, 2200 manat
-Gənclərlə iş, 15 yer, 2200 manat

## MBA proqramı (Azərbaycan və ingilis bölmələri üzrə)

-Biznesin təşkili və idarə edilməsi (maliyyə sahəsi üzrə), Azərbaycan bölməsi, 10 yer, 2200 manat
-Biznesin təşkili və idarə edilməsi (maliyyə sahəsi üzrə), ingilis bölməsi, 10 yer, 2200 manat

-Biznesin təşkili və idarə edilməsi (vergi üzrə), Azərbaycan bölməsi, 10 yer, 2200 manat
-Biznesin təşkili və idarə edilməsi (vergi üzrə), ingilis bölməsi, 5 yer, 2200 manat

-Biznesin təşkili və idarə edilməsi (mühasibat uçotu üzrə), Azərbaycan bölməsi, 10 yer, 2200 manat
-Biznesin təşkili və idarə edilməsi (mühasibat uçotu üzrə), ingilis bölməsi, 5 yer, 2200 manat

-Biznesin təşkili və idarə edilməsi (menecment üzrə), Azərbaycan bölməsi, 10 yer, 2200 manat
-Biznesin təşkili və idarə edilməsi (menecment üzrə), ingilis bölməsi, 10 yer, 2200 manat

-Biznesin təşkili və idarə edilməsi (marketinq üzrə)*, ingilis bölməsi, 10 yer, 2200 manat

** Bu ixtisasın tədrisi Azərbaycan Universiteti və İtaliyanın Tuscia Universiteti ilə birgə Beynəlxalq İkili Diplom Proqramı əsasında həyata keçirilir.*



# MƏZUNLARIN İZİ İLƏ
## Səyavuş Əlizadə ilə söhbət

Hazırlayanlar
Ramazan Musayev
Elxan Fərzəliyev

**“Tək mən kolleksiya toplamamışam. Burada həm şəxsi kolleksiyalar, həm etnoqrafiya materialları və arxeoloji materiallar, həm də müxtəlif istiqamətlərdə kolleksiyalar sərgilənir”.**

**“Müəllim kollektivimiz mükəmməl idi. Onlar bizə çox böyük dayaq olublar, xüsusilə də mənə”.**

*2009-cu ildə İqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisasından fərqlənmə diplomu ilə məzun olan Səyavuş Əlizadə Sevda Abdullayeva adına "Xəzər" Muzey Mərkəzinin təsisçisidir. Bakının Xəzər rayonunun Şağan qəsəbəsində yerləşən muzeyin rəsmi açılışı 2021-ci ilin dekabr ayında olub. Muzeydə Azərbaycanın tarixini, mədəniyyətini, etnoqrafiya və arxeologiyasını əhatə edən 14 mindən çox eksponat sərgilənir. Kolleksiya toplamağa ailə yadigarlarını yığmaqla başlayan məzunumuz əminliklə deyə bilərik ki, muzeyin istifadəyə verilməsi ilə ən böyük arzusunu həyata keçirib.*

*"Məzunların izi ilə" adlı yeni guşəmizin qonağı Səyavuş Əlizadədir. Olduqca maraqlı və səmimi keçən söhbət üçün məzunumuza təşəkkür edirik.*

**"Xəzər" Muzey Mərkəzi necə formalaşdı, böyük zəhmət tələb edən muzeyin ərsəyə gəlmə prosesi barədə nə deyə bilərsiniz?**

Azərbaycan Universitetinin rəhbərliyini, müəllim və tələbə kollektivini salamlayır, göstərdiyiniz diqqətə görə təşəkkür edirəm. Kolleksiya toplamağa uşaq yaşlarımdan başlamışam. Bu il artıq 23-cü ildir ki, kolleksiya toplayıram və bunun nəticəsi kimi artıq muzeyim var. Vaxtı ilə mən “muzeyim olacaq” deyəndə hamı mənə gülürdü, deyirdilər ki, bir uşağın, bir gəncin muzey düşüncəsi, təfəkkürü görəsən haradan gəlir. Bu gün mən o arzuma çatmışam.

Muzeyin formalaşması həm Xəzər rayonunun, həm Xəzər dənizinin, həm də Xəzər xaqanlığının adı ilə bağlıdır. Muzeyə bu adı böyüklərimin tövsiyəsi ilə, onlarla məsləhətləşərək birlikdə vermişik.

**Azərbaycanda ilk Etno-Art Muzeyin sahibi olduğunuzu deyə bilərikmi?**

Bəli, etno-art muzey kimi, əminliklə deyə bilərəm ki, Azərbaycanda bir ilkdir. Çünki “Xəzər” Muzey Mərkəzi bir kolleksiyanın muzeyi deyil. Tək mən kolleksiya toplamamışam. Burada həm şəxsi kolleksiyalar, həm etnoqrafik və arxeoloji materiallar, həm də müxtəlif istiqamətlərdə kolleksiyalar sərgilənir.  Burada yerli camaatın muzeyə bağışladığı yüzlərlə eksponat var. Ümumilikdə isə hazırda 14 mindən çox eksponat var ki, bunların əksəriyyətini yerli insanlar hədiyyə edib.

**Ən sevdiyiniz kolleksiyanız hansıdır?**

İnsan öz övladlarını necə ayıra bilmirsə, mən də elə. Belə deyək, insanın maksimum 10-15 uşağı ola bilərsə, məndə bu 14 mindir. Bunların hər biri mənim üçün əziz və dəyərlidir. Hər birinin




özünün tarixçəsi var. Deyim ki, onların heç birini ayırmıram. Ən zəifi belə mənim üçün dəyərlidir. Hətta bir rəssam var, məndə olan qrafik işini götürmək istəyirdi. Dedi ki, bu mənim zəif işimdi, kolleksiyaya qoymayaq. Dedim ki, yox, mən sizi bu "zəif iş"iniz ilə tanımışam. Sizi tanıdığım ilk iş bu olub. Bu, artıq tarixçədir və mənim üçün əsasdır, önəmlidir, dəyərlidir.

**Tam şəkildə bitmiş olan kolleksiyanız varmı?**

Ümumiyyətlə heç bir kolleksiyaçı deyə bilməz ki, mənim kolleksiyam tamamlanıb. Çünki kolleksiya hər dəfə yenilənir. Mənim ilk kolleksiyam isə qədim sikkələrdir. İkincisi isə bonistika - Azərbaycan ərazisində istifadə olunan kağız pulların kolleksiyası olub.

**Azərbaycan Universitetində iqtisadiyyatın hüquqi tənzimlənməsi ixtisası üzrə təhsil almısınız. Bu sahədə fəaliyyətiniz olub?**

Belə deyim, mən o ixtisasa istəmədən qəbul olmuşdum. Əslində turizmi istəyirdim. Elə oldu ki, oxudum, məzun oldum. Dərslərimdən geri qalmır, eyni zamanda universitetin ictimai sferasında aktiv fəaliyyət göstərirdim. Amma məzun olduğum ixtisas üzrə davam edəcəyimi heç vaxt düşünməmişəm.

**Tələbəlik illərinizi necə xatırlayırsınız?**

Çox maraqlıdır ki, universitet dövründə hansı tələbələrlə dostluq etmişəmsə, bu gün də həmin insanlar ətrafımdadır. Başqa ixtisaslarda oxuyan və yaxşı münasibətlərimiz olan tələbə yoldaşlarımın da sayı çox olub. Biz mütəmadi olaraq əlaqə saxlayırıq, dostluq edirik. Müəllim kollektivimiz isə mükəmməl idi. Həyatda olanların Allah canını sağ eləsin, dünyasını dəyişənlərə Allah rəhmət eləsin. Onlar bizə çox böyük dayaq olublar, xüsusilə də mənə. Bəlkə fərqlənirdim mən, ona görə idi. Tələbə ikən kitabım çıxmışdı, kolleksiya toplayırdım...

**Səyavuş Əlizadə tələbə Səyavuşa və yaxud əksinə tələbə Səyavuş indiki Səyavuş Əlizadəyə bir məsləhət versə nə olardı bu?**

Onu deyim ki, 20 yaşımda nə düşünürdümsə, bu gün də onu düşünürəm. 20 yaşımda özümü necə hiss edirdimsə, bu gün də elə hiss edirəm. Bu gün, sabah 35 yaşım olacaq, amma bu yaşı hiss etmirəm. Özümü hələ də universitetin tələbəsi kimi hiss edirəm. Məqsədim var sadəcə və ona doğru gedirəm.

**Bir az da kitablarınızdan danışaq. "Bakılı belə danışır" (Bakı Ləhcəsi), "Şağan və şağanlılar" və "101 azərbaycanlı qadın" adlı 3 kitabınız var.**

Tələbə idim, hamı bir-birindən soruşurdu haralısan? Mən deyirdim ki, Şağanlıyam. Tələbələr, müəllim heyətinin əksəriyyəti Şağanın harada olduğunu bilmirdi. Mən də belə qərara gəldim ki, qədim tarixə malik, onlarla tarixi abidəsi olan, respublikaya çoxlu sayda görkəmli şəxsiyyət bəxş etmiş bir kənd haqqında mütləq



bir kitab yazmalıyam. Məndən əvvəl etnoqraf Təvəkkül Səlimov "Şağan" adlı kitab yazmışdı, o kitab 1998-ci ildə çıxmışdı. Təvəkkül Səlimov həm də mənim qohumumdur. Elə oldu ki, 2008-ci ildə, mən onda üçüncü kursda oxuyurdum, mənim "Şağan və Şağanlılar" kitabım çapdan çıxdı. Kitab, müəllim və tələbə kollektivi arasında çox böyük marağa səbəb oldu.

Növbəti kitab "Bakılı belə danışır" (Bakı ləhcəsi) oldu ki, xalq yazıçısı Qılman İlkinin təşəbbüsü ilə ərsəyə gəldi. Onunla tez-tez görüşürdük, söhbət edirdik. Bir dəfə yanına bir kitab aparmışdım, qədim əlyazma idi, orda bir köhnə söz var idi, oxudu, mənasını bilmədi, daha doğrusu unutmuşdu. Həmin dövrdə Qılman müəllimin 90-dan çox yaşı var idi. Dedi ki, bu sözü mənim nənəm istifadə edərdi. Dedim o sözü mən yazmışam, mən də nənəmdən eşitmişəm, nənəmdən, babamdan eşitdiyim sözlərin lüğətini hazırlamışam. Bir xeyli üzümə baxdı və əlyazmaları görmək istədi. 1400 sözdən ibarət əlyazmanı apardım Qılman müəllimin yanına. 2009-cu ilin oktyabr ayında tamamladıq kitabı. Bir müddət sonra Qılman müəllim rəhmətə getdi. 2010-cu ilin fevral ayında "Bakılı belə danışır" kitabını çıxardım və Qılman müəllimin xatirəsinə həsr etdim. Kitabın adını qəzəlxan şairimiz Arif Buzovnalı qoyub.

Qaldı ki, etnik mənsubiyyəti Azərbaycana dayanan və ilklərə imza atan Azərbaycanlı qadınlara həsr olunan kitab, tamamlanmayıb, üzərində işləyirəm. Bu kitabın adını mən bir neçə variantda düşünmüşdüm, əvvəl "101 qadın" idi, daha sonra "111" oldu, indi "111 azərbaycanlı qadın" üzərində dayanmışam. Bunlardan 100-ü etnik azərbaycanlı, 10-u Azərbaycanda doğulan, 1-i isə nə Azərbaycanda doğulub, nə də etnik azərbaycanlıdır. Amma birbaşa Azərbaycana bağlıdır, çünki Sovet Azərbaycanının ilk qadın rəhbəri olub, söhbət 1921-ci ildən gedir.

**İstəyirəm indi 10 il əvvələ qayıdaq. 2013-cü ildə "Baku Creative Center"də "İlk və son" adlı sərginiz açılmışdı. Onda muzeyinizin olacağını heç düşünürdünüzmü?**

Bu yaxınlarda həmin sərgim hazırlanan videolara baxırdım, videolardan birində demişəm ki, "Bilmirəm bu muzey necə olacaq, amma sizə söz verirəm ki, olacaq. Həmin sərginin üzərindən 10 il keçib və 2021-ci ilin 7 dekabr tarixindən artıq muzey fəaliyyətdədir.

Hər şey məqsəddən irəli gəlir. Hərdən gəlirlər, deyirlər ki, muzey Şağandadır, uzaqdır, sən bunu niyə şəhərdə etməmisən? Əvvəla mən müəllimim Sevda Abdullayevaya təşəkkür edirəm. 2016-cı ildə onun öz təşəbbüsü ilə məktəbdə mənə böyük bir yer ayrılmışdı. Sevda xanım yaşı ilə əlaqədar təqaüdə çıxandan sonra isə muzeyin yaradılması üçün öz həyatinin böyük bir hissəsini təmənnasız olaraq mənə hədiyyə etdi. Biz də 2021-ci ilin 7 dekabr günü, açılışda rəsmi olaraq muzeyin adının Sevda Abdullayeva adına "Xəzər" Muzey Mərkəzi olduğunu elan etdik.

**Məzun olduqdan sonra universitetimizin fəaliyyəti ilə maraqlanırsınızmı?**

Universiteti bitirdiyim vaxtdan mütəmadi olaraq müəllimlərimlə əlaqə saxlayıram. Məzun günlərində iştirak etmişəm. Hətta bəzi tələbələr var idi ki, mən onlarla heç universitet vaxtı görüşməmişəm, sonradan əlaqə saxlamışıq. Elə sizin bura gəlməyiniz bizim əlaqəmizin nəticəsidir. Çox sağolun gəldiniz. Mən də muzeyin təsisçisi kimi Azərbaycan Universitetinin müəllim və tələbə heyətini, həm hazırda təhsil alan tələbələri, həm də müxtəlif illərdə bitirən məzunları burada görməkdən hər zaman şad olaram, nə vaxt istəsəniz buyurub gələ bilərsiniz.

**Təşəkkür edirik.**

# 2023 KONFRANSLAR

**10 MART 2023-cü il**

Gənc tədqiqatçıların VI respublika elmi konfransı

**12 MAY 2023-cü il**

Heydər Əliyev və Türk Dünyası beynəlxalq elmi konfransı

**24-25 NOYABR 2023-cü il**

International Conference on Social Work & Social Research

Washington University in St. Louis (USA)
Azerbaijan University
Sakarya University (Türkiye)
The Center for Social Research (Azerbaijan)




Əmək bazarında yeni peşə:

# MEDİATOR

**Nadir Adilov**
**Mediasiya Şurası İdarə Heyətinin sədri**
**Birləşmiş Millətlər Təşkilatının İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsinin üzvü**
**Azərbaycan Universitetinin məzunu**

*Biz öz fəaliyyətimizə sosial işçiləri cəlb etməklə onların sonrakı professional inkişafına da dəstək veririk. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə bu sahədə çox sıx və səmərəli əməkdaşlıq edirik. Nazirliyin dəstəyi ilə DOST İş Mərkəzi tərəfindən bizə bu günədək 8 nəfər sosial işçi ayrılmışdır. Bu işçilərin bir neçəsi tərəfimizdən daimi iş yerləri ilə təmin edilmişdir.*

*Mediasiya təşkilatları öz fəaliyyətlərinə bir neçə əməkdaş, mühasib, ofis əməkdaşları və texniki personal da cəlb edirlər. Bizim hesablamalarımıza görə, bu gün mediatorlar da daxil olmaqla, texniki və ofis işçiləri ilə birlikdə mediasiya peşəsinə görə əmək bazarı iştirakçılarının sayı statistik olaraq 300-350 nəfər arasında dəyişir və aparılan işlər nəticəsində bu rəqəm gələcəkdə daha da artacaqdır.*

Ölkədə əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, əhalinin məşğulluq və sahibkarlıq imkanlarının genişləndirilməsi, layiqli əməyin dəstəklənməsi, işçi qüvvəsinin rəqabətqabiliyyətliliyinin artırılması və əmək məhsuldarlığının yüksəldilməsi hesabına iqtisadi inkişafın təmin edilməsi Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli, 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində başlıca məqsədlər olaraq müəyyən edilmişdir. Eyni zamanda sahibkarlığın inkişafı üçün mediasiyanın tətbiqini təşviq etmək məqsədilə, kiçik və orta sahibkarlıq üçün alternativ mübahisələrin həlli mexanizmləri arasında mediasiyanın vacibliyi fərqləndirilərək, "Mediasiya haqqında" Qanun qəbul edilmiş, eləcə də, Prezident İlham Əliyev tərəfindən imzalanmış Qanunun tələblərinə görə Mediasiya Şurası yaradılmışdır.

Mediasiya Şurası yarandığı qısa müddətdə həm təşkilati strukturun formalaşdırılması, həm də Mediasiya haqqında Azərbaycan Respublikasının Qanununun düzgün tətbiq edilməsi, mediatorların yetişdirilməsi, onların fəaliyyətlərinə dəstək verilməsi sahəsində geniş işlər görmüşdür. Ədliyyə Akademiyasında müvafiq kursları bitirən şəxslər Mediasiya Şurasına üzv olub, mediator kimi fəaliyyət göstərdikdən sonra, əlbəttə ki, vergi ödəyicisi, sosial sığorta haqları ödəyicilərinə çevrilirlər və əmək bazarında özlərinə layiqli yer tuturlar.

Bu gün ölkə ərazisində Mediasiya Şurasının üzvü olan 299 nəfər mediatordan 280 nəfər aktiv fəaliyyət göstərir, onlar da digər peşələrin sahibləri kimi əmək bazarı iştirakçılarına çevrilməklə, ixtisaslaşmış peşə olan mediator peşəsini inkişaf etdirirlər. Dövlət qeydiyyatına alınmış 37 mediasiya təşkilatı əlbəttə ki, fəaliyyətə başladıqda mediatorlarla əmək və mülki müqavilənin imzalanmasını təmin edirlər.

Bu gün 31 mediasiya təşkilatı mediasiya reyestrinə daxil edilmişdir, digər mediasiya təşkilatlarının da reyestrə daxil edilməsi məsələsinə yaxın zamanlarda baxılacaqdır. Bunu deməkdə məqsədim ondan ibarətdir ki, mediasiya təşkilatları bütün ölkə boyu mediatorların məşğulluğunun təmin edilməsində mühüm işlər görür. Həmin təşkilatlar üçün tələblərdən biri də iki mediatorla müqavilə imzalamaq və ərazi üzrə fəaliyyət göstərən istənilən sayda mediatorla müqavilə imzalanmasını təmin etməkdir.

Eyni zamanda mediasiya təşkilatları öz fəaliyyətlərinə bir neçə əməkdaş, mühasib, ofis əməkdaşları və texniki personal da cəlb edirlər. Bizim hesablamalarımıza görə, bu gün mediatorlar da daxil olmaqla, texniki və ofis işçiləri ilə birlikdə mediasiya peşəsinə görə əmək bazarı iştirakçılarının sayı statistik olaraq 300-350 nəfər arasında dəyişir və aparılan işlər nəticəsində bu rəqəm gələcəkdə daha da artacaqdır.

Eyni zamanda biz öz fəaliyyətimizə sosial işçiləri cəlb etməklə onların sonrakı professional inkişafına da dəstək veririk. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə bu sahədə çox sıx və səmərəli əməkdaşlıq edirik. Nazirliyin dəstəyi ilə DOST İş Mərkəzi tərəfindən bizə bu günədək 8 nəfər sosial işçi ayrılmışdır. Bu işçilərin bir neçəsi tərəfimizdən daimi iş yerləri ilə təmin edilmişdir.

Bizim fəaliyyətimiz təkcə Mediasiya haqqında Azərbaycan Respublikasının Qanunundan deyil, digər Qanunvericilik aktlarından da asılıdır. Məhz bu səbəbdən də Mediasiya Şurası olaraq ölkə ərazisində əmək münasibətlərinin inkişafı və tam məşğulluğun təmin edilməsi istiqamətində dövlətin iqtisadi və sosial siyasətini icra etmək məqsədilə "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun qarşımıza qoyduğu tələblərə nail olmaq üçün müxtəlif tədbirlər həyata keçiririk. Bu sahədə siyasəti həyata keçirən aidiyyəti qurumla, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə və Nazirliyin tabeçiliyində olan Dövlət Məşğulluq Agentliyi, DOST Agentliyi, Əmək Müfəttişliyi, Sosial Xidmətlər Agentliyi ilə çox sıx əlaqələrimiz var və bu əlaqələr əmək bazarında bizim müsbət nəticələr əldə etməyimizə çox ciddi təsir göstərir.

Əlbəttə ki, mediatorların peşəkar kimi hazırlanmasında və onların bu peşəyə vəsiqə almasında Mediasiya Şurasının reyestrinə daxil edilmiş təlim qurumu kimi Ədliyyə Akademiyasının xidmətləri əvəzsiz və danılmazdır. Bu gün keyfiyyətli nəticələri ilə sayılıb seçilən bütün mediatorlar Ədliyyə Akademiyasında müvafiq təlimləri uğurla başa vurduqdan sonra mediator peşəsinə yiyələniblər.

**Mediasiya haqqında**

Mediasiya mübahisələrin məhkəmədən kənar alternativ həll yollarından biridir. Tərəflər mediasiya sessiyaları vasitəsilə məhkəmələrə nisbətdə daha az xərc çəkərək mübahisələrini arzu etdikləri zaman və formada həll edə bilərlər.

Vəkil ilə mediatorun arasında ən böyük fərq, mediatorun müstəqilliyi və neytrallığıdır. Mediator heç bir tərəfi təmsil etmir. Buna görə də mediasiya sessiyalarında tərəflərdən əlavə olaraq, tərəflərin maraqlarının müdafiəsi və təmini baxımından hər tərəfin vəkilləri və ya onları təmsil edən digər maraqlı şəxslər də iştirak edə bilər.

Azərbaycanda 2019-cu il martın 29-da "Mediasiya haqqında" qanun qəbul edilib, məcburi məhkəmə mediasiyasına dair müddəalar isə 2020-ci ilin iyulun 1-dən qüvvəyə minib.

Mediasiyanın tətbiqi belədir: qanun qəbul olunandan sonra ailə və məişət məsələlərində məhkəməyə müraciət etdikdə onlardan mediator qəbulunda olub-olmamaları soruşulur. Cavab "xeyr" olduqda məhkəmə o işə baxmır və tərəflərə mediasiya institutuna müraciət etmək təklif edilir. Yalnız mediasiya prosesini keçmiş konfliktlər və ya mediasiya prosesində həllinə nail olunmamış problemlərə məhkəmə baxır. İki tərəf mediatorun köməyindən sonra razılığa gəlib sənəd imzalasalar, bu hüquqi sənəd sayılır və məhkəməyə ehtiyac qalmır.



## Sənani Musa oğlu Mustafayev

**ASC "Xalq" Bankı,
"İsmayıllı" filialının direktoru**

*2002, Maliyyə və kredit, bakalavriat*

Sənani Musa oğlu Mustafayev 1981-ci ildə Ermənistan Respublikasının (Qərbi Azərbaycan) Kalinino rayonunun Evli kəndində anadan olub. 2002-ci ildə Azərbaycan Universitetindən Maliyyə və kredit ixtisası üzrə bakalavr dərəcəsi, 2022-ci ildə Odlar Yurdu Universitetindən Bank işi ixtisası üzrə magistr dərəcəsi alıb.

İsveçrənin biznes və idarəetmə sahəsində ixtisaslaşan universiteti "Swiss Montreux Business School"un korporativ maliyyə istiqaməti üzrə MBA proqramının məzunudur.

2005-2008-ci illərdə Azərbaycan Respublikası və Rusiya Federasiyasında müxtəlif şirkətlərdə baş menecer vəzifəsində çalışıb.

2008-ci idə ASC "Xalq" Bankında əmək fəaliyyətinə başlayıb. 2014-cü ildə ASC "Xalq" Bankının "Yevlax" filialının direktoru vəzifəsinə təyin olunub. 2015-ci ildən ASC "Xalq" Bankının "İsmayıllı" filialının direktorudur.

Evlidir, iki övladı var.



## Samir Müzəffər oğlu Hüseynov

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Övladlığagötürmə departamentinin Uçot və təhlil şöbəsinin müdiri**

*2016, Sosial iş, bakalavriat*

Samir Müzəffər oğlu Hüseynov 1994-cü ildə Sabirabad rayonunda anadan olub. 2016-cı ildə Azərbaycan Universitetindən Sosial iş ixtisası üzrə bakalavr dərəcəsi alıb.

2016-cı ildən başlayaraq müxtəlif dövlət orqanları və özəl şirkətlərdə, o cümlədən DOST Agentliyində mütəxəssis və rəhbər vəzifələrdə işləyir. Həmçinin bir sıra QHT-lərdə könüllü fəaliyyət göstərib və beynəlxalq layihələrdə çalışıb.

2019-cu ilin dekabr ayında DOST Agentliyində Uçot və təhlil şöbəsinin müdiri, 2020-ci ilin sentyabr ayında isə Sosial Xidmətlər Agentliyinin Övladlığagötürmə departamentinin Uçot və təhlil şöbəsinin müdiri vəzifəsinə təyin olunub.

Evlidir, bir övladı var.

# Azərbaycan Universiteti
# 2023-cü il üçün fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul planı

## Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul planı

**İqtisad elmləri**
-Müəssisələrin təşkili və idarə olunması - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
-Sahə iqtisadiyyatı - 1 nəfər, qiyabi, ödənişli əsaslarla

**Tarix elmləri**
-Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları - 1 nəfər, qiyabi, ödənişli əsaslarla

**Filologiya elmləri**
-German dilləri - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
-Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
-Azərbaycan ədəbiyyatı – 1 nəfər, qiyabi, ödənişli əsaslarla
-Dünya ədəbiyyatı (Amerika, ingilis) - 1 nəfər, qiyabi, ödənişli əsaslarla

**Sosial iş**
-Sosial iş - 1 nəfər, qiyabi, ödənişli əsaslarla

## Fəlsəfə doktoru proqramı üzrə dissertanturaya qəbul planı

**Riyaziyyat elmləri**
-Diferensial tənliklər - 1 nəfər, qiyabi, ödənişli əsaslarla

**İqtisad elmləri**
-Ümumi iqtisadiyyat - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
-Müəssisələrin təşkili və idarə olunması - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
-Sahə iqtisadiyyatı - 1 nəfər, qiyabi, ödənişli əsaslarla

**Filologiya elmləri**
-Dil nəzəriyyəsi - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
-German dilləri - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
-Türk xalqları ədəbiyyatı - 1 nəfər, qiyabi, ödənişli əsaslarla
-Dünya ədəbiyyatı - 1 nəfər, qiyabi, ödənişli əsaslarla

**Sosial iş**
-Sosial iş - 1 nəfər, qiyabi, ödənişli əsaslarla

Fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçirilir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçərək təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər.




DÖVLƏT
İMTAHAN
MƏRKƏZİ

# ABİTURİYENT MƏSLƏHƏT MƏRKƏZİ

## ÖDƏNİŞSİZ ƏSASLARLA

- Tələbə qəbulu qaydaları
- Ali və orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu
- Abituriyentin elektron ərizəsinin doldurulması və təsdiq edilməsi qaydası
- Texniki problemlərin həlli
- Müsabiqə şərtləri
- İxtisas seçimi zamanı diqqət yetirilməli olan məsələlər

**Məsləhət xidməti**
**Texniki dəstək**

Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli küçəsi, 71
Tel.: (+994 12) 431 41 17
office@au.edu.az
www.au.edu.az

# Azərbaycan Universiteti
# "Korreksiyaedici təlim" ixtisası üzrə kadr hazırlığına başlayır

**İxtisasın təsviri**
Korreksiyaedici təlim (Xüsusi təhsil) beynəlxalq aləmdə "Special Education", "Özel Eğitim", "Korreksion psixologiya", "Defektologiya" kimi terminlərlə ifadə olunur. İxtisasın əsas məqsədi psixi, əqli və fiziki cəhətdən inkişafdan geri qalmış xüsusi qayğıya ehtiyacı olan uşaqların və əlilliyi müəyyən edilmiş şəxslərin təlim-tərbiyə və təhsili, fəal həyata sosial adaptasiyası, reabilitasiyası və baş vermiş inkişaf pozulmalarının profilaktikasının öyrənilməsidir. Korreksiyaedici təlim uşaq və yeniyetmələrin davranışlarının bəzi yolverilməz və dağıdıcı növlərini (təcavüzə meyillilik, neqativizm, qorxu, hiperaktivlik) korreksiya etmək , mövcud yaxud yeni bacarıqların (intellektual və nitq inkişafı, bədən tərbiyəsi, rəsm bacarıqları) inkişaf etdirilməsinə yönəlmişdir.
Xüsusi qayğıya ehtiyacı olan uşaq və yeniyetmələrlə və əlilliyi müəyyən edilmiş şəxslərlə iş təhsil və reabilitasiya sahəsində xüsusi yanaşma tələb edən sahələrdəndir. III ixtisas qrupunda yer alan Korreksiyaedici təlim ixtisası məhz bu sahə üzrə mütəxəssislər hazırlayır. Korreksiyaedici təlim surdopedaqogika, tiflopedaqogika, oliqafrenpedaqogika və loqopediya olmaqla 4 sahəyə ayrılır. Surdopedaqogika eşitmə qabiliyyəti tam və qismən məhdud olan şəxsləri, tiflopedaqogika görmə qabiliyyəti tam və qismən məhdud olan şəxsləri, oliqafrenpedaqogika əqli geriliyi olan şəxsləri, loqopediya isə nitq qabiliyyəti tam və qismən məhdud olan şəxsləri öyrənir.

**İxtisasın tarixi**
İnsan varlığının mövcud olduğu tarix boyu əlilliyi olan insanlar cəmiyyətin bir hissəsi olub. Arxeoloqlar dəfələrlə qazıntılar zamanı neandertal dövründən bəri əlilliyi olan insanların olmasını aşkar ediblər. Cəmiyyətlərin əlilliyi olan insanlara münasibəti həmişə həmin cəmiyyətlərin mədəniyyətlərinə, dəyərlərinə və inanclarına əsaslanıb. Bəzi coğrafiyalarda həmin şəxsləri öldürür, hündür yerlərdən aşağı atır yaxud diri-diri dəfn edirdilər. Zamanla onlara münasibətdə cəmiyyətlərin baxış bucağı dəyişdi və bu sahə üzrə müstəqil elm və peşə sahəsi kimi Korreksiyaedici təlim formalaşmağa başladı. Korreksiyaedici təlim günümüzdə dünyanın müxtəlif kollec və universitetlərində müstəqil ixtisas kimi tədris olunur.

**Tədris olunan fənlər**
Bu ixtisasda təhsil alan tələbələrə psixologiya, uşaq anatomiyası və fiziologiyası, defektologiyanın əsasları, inkişaf və yaş psixologiyası, pedaqogika, defektoloji xidmət, loqopediya, inkişafdan geri qalan uşaqların psixologiyası, eşitmə və nitq orqanlarının anatomiyası kimi fənlər tədris olunur.

**İxtisas üçün lazım olan bilik və bacarıqlar**
Pedaqoji və psixoloji biliklərin olması; səbrli və təmkinli xarakterə sahib olmaq; işə məsuliyyətli yanaşmağı bacarmaq; analitik düşüncə qabiliyyətinə malik olmaq; fikrini rahat və qısa zamanda çatdırmaq üçün səlis və lakonik nitq qabiliyyətinə malik olmaq; daim yenilikçi olmaq; sosial yönümlü olmaq; empatiya qurmağı bacarmaq; işə yüksək motivasiya ilə yanaşmaq; azyaşlı uşaqlarla işləmək bacarığına malik olmaq; müasir təlim və tədris metodlarını tətbiq etmək; öyrənməyi və öyrətməyi bacarmaq; Breyl əlifbasını (görmə qabiliyyəti tam və qismən məhdud olan şəxslər üçün), işarət dilini (eşitmə qabiliyyəti tam və qismən məhdud olan şəxslər üçün), psixologiyanın xüsusi və ümumi sahələrini öyrənmək də bu ixtisas üçün olduqca faydalıdır.

**Karyera imkanları**
Korreksiyaedici təlim ixtisası pedaqogikanın xüsusi sahəsi ilə maraqlanan abituriyentlər üçün olduqca uyğun ixtisasdır. Bioloji, sosial, pedaqoji və psixoloji amillərlə sıx bağlı olan bu ixtisasa tələbat olduqca yüksəkdir.
Təhsilini başa vurub bakalavr ixtisas dərəcəsinə yiyələnən məzun öz istəyinə uyğun olaraq birbaşa peşə fəaliyyətinə başlaya bilər yaxud mövcud qəbul qaydalarına uyğun olaraq təhsilini magistraturada davam etdirə bilər.
Korreksiyaedici təlim ixtisasının məzunları mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq ümumtəhsil, xüsusi təmayüllü dövlət və özəl təhsil müəssisələri-gimnaziya, lisey, ilk peşə-ixtisas və orta ixtisas təhsili müəssisələrində, ali təhsil müəssisələrinin tabeçiliyində olan məktəblərdə, ali təhsil müəssisələrində, kütləvi və xüsusi tipli təhsil və tərbiyə müəssisələrində, habelə peşə və ixtisas dərəcəsinə uyğun gələn idarə və təşkilatlarda əmək fəaliyyətinə başlaya bilər, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün dövlət müəssisələrində, psixologiya və reabilitasiya mərkəzlərində, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin və DOST Agentliyinin sığınacaqlarında və xidmət müəssisələrində ixtisaslaşma istiqamətindən asılı olaraq defektoloq, oliqafrenpedaq, surdopedaq, tiflopedaq, sosial pedaqoq, sosial terapevt, xüsusi təhsil müəllimi və loqoped kimi fəaliyyət göstərə bilərlər. Autizm və Daun sindromlu uşaqlarla iş, hiperaktivlik, davranış pozulmaları, dayaq hərəkət aparatı pozulmuş uşaqlarla pedaqoji iş də məhz Korreksiyaedici təlim ixtisasının fəaliyyət sahəsinə daxildir.

**Azərbaycan Universitetində kadr hazırlığı**
Azərbaycan Universiteti bu il bakalavriat səviyyəsində ilk dəfə olaraq "Korreksiyaedici təlim" ixtisası üzrə qəbul aparır. "Sosial işin təşkili" kafedrası tərəfindən tədris olunan ixtisas üzrə qəbul planında 20 yer ayrılıb. Qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət sifarişi ilə və ödənişli əsaslarla aparılır.




**ChatGPT: nədir, necə istifadə etmək olar?**

Süni zəka tədqiqat şirkəti OpenAI tərəfindən hazırlanan ChatGPT (Generative Pre-Trained Transformer) insan dilini başa düşən və təfərrüatlı şəkildə insan kimi mətn hazırlaya bilən süni zəka chatbotunun prototipidir. Başqa bir deyişlə, bütün kateqoriyalardan istənilən suala cavab vermək üçün öyrədilmiş süni zəka əsaslı söhbət robotudur.

ChatGPT hələ sınaq mərhələsində olsa da, imkanları ilə diqqət çəkməyi bacarıb. Hətta ChatGPT-nin "Google"u əvəz edəcəyi də iddia olunur. Çünki axtarış motorlarının əksinə, istifadəçi ilə birbaşa söhbət edə bilir.

ChatGPT mahiyyətcə internet səhifəsidir. Bu internet səhifəsində istifadəçilər mətn yazma bölməsinə suallarını yazır və süni zəkanın cavab verməsini gözləyirlər. İstifadəçilər süni zəkadan esse, şeir və ya skript yazmağı, hətta mətni tərcümə etməyi və ya ümumiləşdirməyi istəyə bilərlər.

Bu günə qədər süni zəka ilə dəstəklənən çoxlu chatbot versiyaları yaradılsa da, ChatGTP-ni onlardan fərqləndirən bir çox xüsusiyyət var. ChatGPT-nin ən əsas xüsusiyyəti, verilən suala real vaxt cavabları yaratmasıdır. Ona ağlınıza gələn istənilən mövzu ilə bağlı sual verə bilər və təbii, səlis cavablar ala bilərsiniz.

2021-ci ilə qədər mövcud olan bütün məlumatları oxuyan və öyrənən söhbət robotu bu məlumatların işığında suallara ən doğru şəkildə cavab verir. Uyğun olmayan sorğuları rədd edir. Həmçinin hər hansı bir şeyin nə etdiyini izah etmək də funksiyaları arasındadır. Dialoq təbii görünür və bir çox hallarda cavabların real şəxs tərəfindən yazıldığı təəssüratı yaradır.

Layihəni idarə edən tədqiqatçılar bildirirlər ki, robotla söhbət formatı istifadəçilərə əlavə suallar vermək fürsəti, süni zəkaya isə buraxdığı səhvləri etiraf etmək, suallarda ona ötürülən yanlış məlumatları düzəltmək və yersiz sorğuları rədd etmək imkanı verir. OpenAI xəbərdarlıq edir ki, robot "ağlabatan görünən, amma mənasız və ya qeyri-dəqiq cavablar da verə bilər".

Vəziyyəti daha yaxşı başa düşmək üçün deyə bilərik ki, GPT-3 modeli 8 milyondan çox sənəd və 10 milyarddan çox söz ehtiyatı ilə öyrədilib. Bu rəqəmlər həqiqətən ciddi məlumatları ehtiva edir. İnkişaf prosesi davam etdiyi üçün sonrakı dövrlərdə dərhal hər şeyi skan edəcək və buna uyğun cavablar verəcəkdir. Elə isə o, verilən suallara cavab verməkdən başqa nə edə bilər?

ChatGPT digər xüsusiyyətlərinə riyazi tənliklərin həlli, mətnlərin yaradılması, tərcümə etmək bacarığı, sazlama və həll, mətni ümumiləşdirmək

bacarığı, təsnifat, təkliflər vermək bacarığı, proqram təminatının inkişafını aid etmək mümkündür.

ChatGPT hətta çətin tənlikləri saniyələr ərzində həll etmək qabiliyyətinə malikdir. Hətta bunu necə həll etdiyini sadə şəkildə sizə deyə bilər. Onun yaxşı müəllim olduğunu söyləyə bilərik. Akademik məqalələr, bədii mətnlər, film ssenarisi kimi bütün mətnlərin təqdim edilməsində uğurludur. Təbii ki, onu düzgün istiqamətləndirmək və ən dəqiq məlumatı vermək çox vacibdir.

Kod yazmağı da bacaran ChatGPT kod blokundakı səhvlərin düzəldilməsi və düzgününün əlavə edilməsi prosesini də həyata keçirir. Dillər arasında bütün tərcümələri edərkən, o, sadə dildən ən çətin səviyyəyə kimi sizinlə həmin dillərdə söhbət edərək dilinizi təkmilləşdirməyə kömək edə bilər. Uzun məqalələri və mətnləri oxumaq istəmədiyiniz zaman sizə xülasə verə bilər. Məlumatın düzgün təsnifatı prosesini də yerinə yetirir. Mövzu və ya fəaliyyətlə bağlı suallar verəndə o, dost kimi öz məsləhətini verə bilər.

2022-ci ilin 30 noyabrında OpenAI tərəfindən dünyaya təqdim olunan ChatGPT hələ ki, ödənişsiz olaraq istifadəçilər üçün əlçatandır. Lakin onun yaxın gələcəkdə ödənişlə xidmət göstərəcəyi düşünülür. Pulsuz proqramın istifadədə qalması üçün OpenAI şirkəti gündə təxminən 100 min dollar xərcləməlidir. Bu onu göstərir ki, müraciət üçün hər ay 3 milyon dollar xərclənir.

ChatGPT-nin gələcəkdə yaradıcı insanların işini kifayət qədər azaldacağı, hətta onları işsiz qoyacağı ehtimal edilir. Buna səbəb isə robotun bir sıra yaradıcı xüsusiyyətləri özündə cəmləşdirməsidir.

"Süni zəka yazarları əvəz edəcəkmi" sualına isə o, belə cavab verib: "Mənim kimi süni intellekt sistemləri insanlara ideya və təkliflər verməklə onlara  kömək edə bilər. Amma yazının sonda necə alınacağı tamamilə müəllifin nəzarəti altındadır".

**ChatGBT-nin "Vətən Müharibəsi nədir" sualına verdiyi cavab belə oldu:**

"Vətən Müharibəsi, 2020-ci ilin sentyabr və noyabr ayları arasında Azərbaycan ilə Ermənistan arasında yaşanan silahlı münaqişədir və İkinci Qarabağ Müharibəsi kimi də bilinir. Bu müharibə, Dağlıq Qarabağ bölgəsi və ətraf rayonların Azərbaycan tərəfindən işğaldan azad edilməsi məqsədi ilə başlamışdır. Dağlıq Qarabağ Ermənistan tərəfindən 1990-cı illərdə Azərbaycan ərazisinə hücum edilərək işğal edilmişdi. Bu işğal nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu erməni separatçılarının nəzarətində olmuşdur. Müharibənin əsas səbəbi, 30 ilə yaxındır ki, Dağlıq Qarabağ məsələsi üzrə başlayan danışıqlar prosesində nəticə alınmaması, münaqişənin sülh yolu ilə həll olunmaması və Ermənistanın ordusunu işğal altındakı Azərbaycan ərazisindən çıxarmamasıdır. Vətən Müharibəsi boyunca Azərbaycan Ordusu döyüş əməliyyatlarında böyük uğurlar qazanmış və bir sıra strateji əraziləri, dağ silsilələrini, şəhər və kəndləri erməni separatçılardan azad etmişdir. Müharibənin sonunda, 10 noyabr 2020-ci il tarixində Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan bir razılaşma ilə atəşkəs elan edilmiş və müzakirələr başlamışdır".

**ChatGPT "Azərbaycan Universiteti haqqında nə deyə bilərsən" sualına isə belə cavab verdi:**

"Azərbaycan Universiteti, Azərbaycan Respublikasının ilk özəl universitetidir. 1991-ci ildə təsis edilmişdir və Bakı şəhərində yerləşir. Universitetin əsas missiyası keyfiyyətli təhsil vermək və elmi tədqiqatlar aparmaqdır.

Azərbaycan Universiteti bir çox fərqli fakültə və ixtisaslarda yüksək keyfiyyətli təhsil proqramları təklif edir. Mühəndislik, iqtisadiyyat, humanitar və sosial elmlər, beynəlxalq münasibətlər kimi sahələrdə təhsil imkanları mövcuddur. Universitetin tələbələrinə bakalavr, magistr və doktorluq dərəcələri verilir.

Azərbaycan Universiteti özünü inkişaf edən, innovasiyaları təşviq edən və müasir texnologiyalardan istifadə edən bir təhsil mərkəzi olaraq təsvir edir. Universitetin tələbələri, akademik kadrları və əməkdaşları elmi araşdırmalar, müxtəlif layihələr,  konfranslar və seminarlar vasitəsilə biliklərini artırmaq və yeni ideyaları paylaşmaq imkanına malikdir.

Özəl universitet statusuna malik olması Azərbaycan Universitetinin daha müstəqil olmasını, inkişaf etməsini və yeni təhsil texnologiyalarını tətbiq etməsini təmin edir. Universitet, özünü Azərbaycanın elm və təhsil potensialını artırmaq üçün böyük bir rol oynayan bir təhsil mərkəzi olaraq görür".


Üçrəngli bayrağınla məsud yaşa!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
qəhrəman oldu!
ülüstan,
an qurban!
məhəbbət
muş məkan!
HEYDƏR
ƏLİYEV İLİ
2023

WASHINGTON UNIVERSITY IN ST. LOUIS · 1853 · Per Veritatem Vis

AZƏRBAYCAN UNİVERSİTETİ 1991

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

SAKARYA ÜNİVERSİTESİ

International Conference on

# SOCIAL WORK & SOCIAL RESEARCH

24-25 November, 2023

Baku I Azerbaijan

AZƏRBAYCAN UNİVERSİTETİ




# "İpək yolu" elmi jurnalı

1997-ci ildə təsis olunan "İpək yolu" elmi jurnalı iqtisad və filologiya elmlərinə aid Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"na daxildir.

Bundan əlavə jurnal
Index Copernicus, Erih PLUS, E-library - РИНЦ (Rusiya)
beynəlxalq indeksləmə bazalarına da daxil edilib.

İldə 4 dəfə nəşr olunan jurnalın hər il bir nömrəsi Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileyi və ya əlamətdar hadisələrin ildönümünə həsr olunub.

AZƏRBAYCAN
UNİVERSİTETİ

Gələcəyini bu gün seç!




6 AYLIQ İCMAL JURNALI

Ünvan: AZ1007, Azərbaycan Respublikası
Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli küçəsi, 71

Tel.: (+994 12) 431 41 12/13/16
office@au.edu.az
www.au.edu.az